**Azərbaycan Milli Elmlər Akademiyası**
**Gəncə Bölməsi**
**Nizami Gəncəvi Mərkəzi**

**Mirzə Mehdi Naci**

# Seçilmiş əsərləri

*Transliterasiya, tərcümə, tərtib*
*və önsözün müəllifi:*
**Əməkdar elm xadimi, Prof. Xəlil YUSİFLİ**

*Kitab AMEA Gəncə Bölməsinin Rəyasət Heyətinin 2021-ci il 06 yanvar tarixli 01/05 qərarı ilə nəşr edilir.*

**Gəncə – Elm – 2021**

Redaktor: dosent ***Afaq Yusifli***
Gəncə Dövlət Universiteti

Rəyçi: ***Təranə Verdiyeva***
Nizami Gəncəvi Mərkəzinin
baş elmi işçisi

M.M.Naci. **Seçilmiş əsərləri.**
*Transliterasiya, tərcümə, tərtib və önsözün müəllifi: **əməkdar elm xadimi, prof. Xəlil Yusifli.***
"Elm" nəşriyyatı. Gəncə, 2021. 157 s.

*Mirzə Mehdi Naci (1805-1883) XIX əsrin maraqlı ədəbi simalarından biridir. Onun "Divan"ı M.Füzuli adına Əlyazmalar İnstitutunun əlyazmalar fondunda (inv: Б-71:2746) saxlanılır. Təbib, həkkak və şair olan Nacinin yaradıcılığı haqqında ədəbiyyat tarixlərimizdə söhbət açılmamış, sadəcə bir həcvçi şair kimi adı çəkilmişdir. Halbuki Naci "Divan"ında ictimai, fəlsəfi mövzularda yazılmış şeirlər daha çoxdur. Onun qəzəl, müxəmməs, müsəddəs, qoşma, rübai janrlarında yazdığı şeirlərdə zamanın nəfəsi duyulur.*

*"Divani-hikmət"in fəal üzvü, Vazehin ölümündən sonra onun rəhbəri olan Nacinin yaradıcılığında Vazeh ənənələri davam etdirilir. Naci həqiqətpərəst, insansevər bir sənətkar olmuşdur. Şeirləri ilə hər cür saxtakarlığa, əyriliyə, ehkamçılığa qarşı mübarizə aparmışdır. Bu kitabda verilmiş şeirlərdə də onun güclü humanizmi əks olunmuşdur.*

**İJBN 5 – 8066 – 1638 – 4**

**1401000000**
**655 (07) – 2004**

***«ELM» nəşriyyatı***

**Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır.

Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirmişdir. Nizami Gəncəvinin geniş şöhrət tapmış "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir.

Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olmuşdur. Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilmişdir. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılmışdır. Mütəfəkkir şairin doğma şəhəri Gəncədə məqbərəsi, Bakıda, Sankt-Peterburqda və Romada heykəlləri ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu və Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Nizami Gəncəvinin adını daşıyır. Böyük Britaniyanın Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzi uğurla fəaliyyət göstərir.

Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilmişdir. Dahi şairin 800 illik yubileyi onun irsinin tədqiqi və təbliğində əsaslı dönüş yaratmışdır. Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan ümummilli lider Heydər Əliyev Nizami irsinə də xüsusi diqqət yetirmişdir. Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açmışdır. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilmişdir. 2011-ci ildə Nizami

Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilmişdir.

2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. 2021-ci il Azərbaycan Respublikasında "Nizami Gəncəvi İli" elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Nizami Gəncəvi İli" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 yanvar 2021-ci il.**

## Mirzə Mehdi Naci və poeziyası

XIX əsr Azərbaycan ədəbiyyatında maarifçilik ideyaları mövqeyində duran, “Divani-hikmət” ədəbi məclisinin ən fəal üzvlərindən biri, Mirzə Şəfi Vazehin ən yaxın həmkarı və onun ölümündən sonra “Divani-hikmət”ə rəhbərlik edən Mirzə Mehdi Naci olmuşdur. Əsərlərindən görünür ki, halal, haqqsevən, dürüst, dindar, yalana, əyriliyə, riyakarlığa, böhtana qarşı dözümsüz bir ziyalı olmuşdur.

Mehdi adı, Naci təxəllüsüdür. Naci nicat verən mənasındadır və onun təbibliyi ilə bağlıdır. Naci bir təbib kimi Gəncədə və Gəncəbasarda yaxşı tanınmışdır. Ayrı-ayrı adamları müalicə etməsi ilə bağlı faktlar əsərlərində də yer almışdır. Buna görə bəzən onu Mirzə Mehdi Təbib kimi də xatırlayırlar. Divanındakı qeydlərdən aydınlaşır ki, onun həkimxanası da olmuşdur. Mirzə sözü isə onun ziyalı olması ilə bağlı hörmət əlaməti olaraq verilmiş addır. Bu mirzə sözü bəzən onun şəxsi adı yerində işlənmişdir. Şairin “Divan”ına yazılmış əlavə bir qeyddə həmin qeydi yazan şəxs özünü Əttürab Mirzə oğlu adlandırır. Buradan belə qənaətə gəlmək olur ki, Əttürab – Turab Mirzə Nacinin oğludur.

Naci “Divan”ının əvvəlində isə onun özünün yazdığı bir qeyd vardır. Həmin qeyd “Divan”da olan şeirlərin yazıldığı xətlə yazılmışdır. Bu qeyddə Yəqub adlı bir

xələfin hicri 1280-ci ildə dünyaya gəlməsindən söhbət açılır. Həm də həmin qeyd iki dəfə təkrar yazılmışdır. Qeyd farscadır. Tərcüməsi belədir: “Səfər ayının dördündə günəşin çıxmasından iki saat sonra “Ezam Yəqub” anadan oldu. Və bu fərdləri onun təvəllüdü üçün maddeyi-tarix etdim” və bu qeydin yanında 1280 rəqəmi yazılmışdır. Maddeyi-tarix üçün yazılan şeirin tərcüməsi aşağıdakı kimidir.

***Dördündə Səfər ayının Yəqub adında xoş xələf***
***Düşdü ana ətayinə – yüzmin izzət ilə şərəf.***
***Tarixini etdim sual, dedilər: "tarixi ğərəf".***

Ğərəf sözü də əbcəd hesabı ilə 1280-ə bərabərdir. bu tarix miladi ilə 1863-cü ilin iyul ayının 22-sinə uyğundur. Bu uşağın adı Yəqub olduğuna görə adının əvvəlində ezam, yəni göndərilən, Allah elçisi olan anlamına gələn söz yazılmışdır. Uşağa Yəqub peyğəmbərin adı ilə eyni ad verilməsinə işarədir. Bu tarixdə Nacinin 58 yaşı var idi. Biz həmin Yəqubun Nacinin oğlu olduğunu düşünürük.

Naci özü haqqında az yazır. Xarrat Qulu Yusifinin ona yazdığı həcvə cavabdan aydınlaşır ki, Naci Gəncədə hörmətli adlı-sanlı bir ailənin övladı olmuşdur.

***Bir xəbər al gəncəlinin yüzündən,***
***Məlum olur sana anın sözündən.***
***Bir kişidə olsa əgər eyblər,***

***Əvvəl onu əhli-bələdlər bilər.***
***Gəncəyə gəl, gör mənin əhvalımı,***
***Gör yürəgində dəxi şəkk qalımı.***
***Külli vilayət tanır əcdadımı,***
***Yaxşılığa çəkibdilər adımı.***

Naci onu da qeyd edir ki, "Qazanmışam düzlük ilə mülk, mal". Aslan ağa Morula yazdığı bir şeirdən isə ahıl yaşlarında yaşına uyğun bir qadınla ikinci dəfə evləndiyini öyrənirik. Naci şeirlərində təmiz bir ailə sahibi olmasından da ürəklə söhbət açır.

Mirzə Mehdi Naci eyni zamanda qəbir daşları düzəltməklə, onların üzərində yazılar həkk etməklə məşhur olmuşdur. M.Nemət "Azərbaycan epiqrafik abidələrinin korpusu" (Bakı, 1991) əsərində onun düzəltdiyi və indi də Gəncədə, Goranboyda Rəhimli kəndində duran abidələrdən söhbət açmışdır. Məşədi xanım onu da qeyd edir ki, Naci düzəltdiyi qəbir daşları üzərindəki yazıları süls və nəstəliq xətləri ilə həkk etmişdir. M.M.Naci sağlığında özü üçün də qəbir daşı düzəltmiş və üzərində vəfat tarixini 1298-ci ilin cumada ayı kimi göstərmişdir. Bu miladi tarixlə 1881-ci ilin aprel ayına uyğun gəlir. Ancaq Naci "Divan"ındakı bir şeirin üzərində onun 1299-cu ilin cumadeyi-əvvəlin 17-də yazıldığı qeyd olunur. Belə çıxır ki, şair 1882-ci ilin mayında hələ sağ imiş. Başqa şerin üzərində isə onu 1300-cü ilin məhərrəm ayının 12-də yazdığını qeyd edir. Bu isə 1882-ci

ilin noyabr ayının 24-nə düşür. Ona görə də Mirzə Mehdi Nacinin vəfatının 1882 və 1884-cü illərdən birində baş verdiyini düşünmək olar. Çünki bu tarixdən sonra yazılmış şeirə "Divan"ında rast gəlmirik.

Mirzə Mehdi Nacinin əldə olan "Divan"ında onun qəzəl, qəsidə, məsnəvi, müxəmməs, müsəddəs, müəşşər, rübai, qoşma formalarında yazılmış şeirləri toplanmışdır. Təbib, həkkak, şair Nacinin şeirləri müxtəlif səbəblərə görə və rəngarəng mövzularda yazılmışdır. Naci şeirlərini fars və Azərbaycan dillərində yazmışdır. Eyni zamanda bütün şeirlərinin əvvəlində onların nə münasibətlə yazıldığını bildirən qeydlər farscadır. Məsələn, qoca yaşlarında xəstələnir, beş həftə yataqda yatır və ürəyi balıq istəyir. Köhnə dostlarından Mahmud ağa adlı bir nəfərə bir şeir yazıb göndərir. Arzusunu ona bildirir. Şeir səmimi, ərkyana yazılmış maraqlı bir əsərdir. Onun başlanğıcında oxuyuruq:

***Ey Mahmud ağa! Ənisi-dirim!***
***Əxlaqi gözəl, kəlami şirin.***
***Ey bülbüli-gülşəni-fəxamət,***
***Ey meyveyi-nəxleyei-nəcabət!***
***Gər halımı sorsan, ey əzizim!***
***Künd eylədi dəhr tiği-tizim.***
***Beş həftədi bəstər içrə zarəm,***
***Gərdun əməlilə biqərarəm...***

Bu şeirin başlanğıcında isə farsca yazılmış belə bir cümlə var: "Vəqti naxoş budəm. Dər heyne-naxosi qüşte-mahi deləm tələb kərde, neveştəm". (Tərcüməsi: "Bir vaxt xəstə idim. Xəstə vaxtı ürəyim balıq əti istədi, yazdım").

Tiflisdə olarkən gürcü gözəllərinə bir qəzəl həsr edir. Şeir yenə azərbaycancadır, ancaq başlanğıcında yazır: "İn mənzume dər həqqe-məhpareyi dər Tiflis qofte şode". Ancaq şeir Vaqif, Vazeh ənənələrinin davamı kimi gürcü gözəlinin vəsfinə və ona olan eşqin ifadəsinə həsr edilmişdir. Qəzəl 18 beytdir.

Qəzəl başdan-ayağa klassik Azərbaycan şeiri ənənələrinə uyğun olaraq yazılmışdır. Bütün beytləri, onlarda ifadə olunan hisslər, duyğular, qənaətlər Füzuli poeziyası ilə səsləşməkdədir.

Füzuli yazır:

***Sürdü Məcnun növbətin indi mənəm***
***rüsvayi-eşq,***
***Doğru derlər hər zaman bir aşiqin***
***dövranıdır.***

Naci Tiflis gözəlinin vəsfinə həsr etdiyi şeirdə yazır:

***Keçüb Fərhadü Məcnun növbəti, şimdi***
***bənəm Məcnun,***
***Təmaşa qıl, gözüm, gör kim, budur Şirin,***
***budur Leyla.***

Yenə Füzuli məşhur "Məni candan usandırdı" qəzəlində yazır:

***Füzuli rindi-şeydadır, həmişə xəlqə rüsvadır,***
***Sorun kim, bu nə sevdadır, bu sevdadan***
***usanmazmı?***

Nacinin qəzəlində yenə bu fikirlə səsləşən, həm də orijinal ifadəsini tapan bir məqamla qarşılaşırıq:

***Gər istərsən vüsali-dilbərə yetməkligi, ey dil,***
***Hicabi-abruni at, cahanda ta ki ol rüsva.***

Klassik poeziyada eşq məfhumu geniş məna daşıdığı kimi, insanlığın, düzlüyün, ləyaqətin, paklığın ən yüksək ifadəsi olduğu kimi, bu yolda rüsva olmaq da həmin yolun yolçusunun sifətlərindən biridir. Əgər Məcnun sevgisinə görə adi adamların gözündə rüsva olursa, bu, onun üçün nöqsan deyil, bəlkə eşqində bütövlüyün nəticəsidir.

Nacinin bu qəzəlində "Məni candan usandırdı"nı xatırladan başqa cəhətlər də var. Məsələn, aşağıdakı beytə nəzər salaq:

***Həriqi-nari-eşqindir fəraqından tənü canım,***
***Yetər munca cəfalərdən, usan bir, ey mələk sima.***

Bu beytdəki "usan" sözü yenə Füzulidən gəlir. Nacinin Füzuli sevgisinin, Füzuli poeziyasındakı həqi-

qət, insanlıq, düzlük, paklıq, əqidə sağlamlığına bağlılığının təsdiqidir.

Təsadüfi deyildir ki, Naci Füzulinin Həbibiyə nəzirə yazdığı müsəddəsə də ayrıca bir cavab yazmışdır. Bəzən elə başa düşmək olar ki, Naci həmin müsəddəsi birbaşa Həbibiyə cavab olaraq qələmə almışdır. Ancaq həmin müsəddəsin elə ilk bəndindən hiss olunur ki, şeir Füzuli müsəddəsinə cavab kimi yazılıb. Həmin şeirin ilk bəndi belədir:

***Hənqami-şam, guşeyi-xəlvət, şəbi-bəhar.***
***Dün rövşən etdi çeşmimi, yaran, rüxi-nigar,***
***Gördü bəni çü zarü həzinü dilfikar***
***Məstanə saldı boynuma zülfün misali-mar.***
***Sordum: Məgər bu mari-siyahdır – dedim. Dedi:***
***– Çox, çox danışma, qatili-canındurur sənin.***

Bu bənddən də görünür ki, Naci qeyri-adi bədii obrazlarla Həbibi və Füzuli qədər oynamır, daha çox öz dövrünün şeir poetikası ölçülərində hərəkət edir, diqqətçəkət lövhələr yaradır. Misal gətirdiyimiz bəndin ikinci misrası Füzuli müsəddəsinin "Dün sayə saldı başimə bir sərvi-sərbulənd" misrasını yada saldığı kimi.

Biz belə düşünürük ki, Naci öz şeirini Füzuli müsəddəsinə nəzirə olaraq yazmışdır. Əgər Füzuli "Dün sayə saldı başimə bir sərvi-sərbülənd" deyirsə, Naci "Dün rövşən etdi çeşmimi, yaran, rüxi-nigar" beyti ilə ona bənzər, onu xatırladan, eyni zamanda fərqli bir poetik

lövhə yaradır. Kimə nəzirə yazdığını xəbər verir. Naci öz şeirinin axırına qədər həmin poetik üsluba sadiq qalır, sevgisini, kədərini, gözəllik duyğularını əks etdirir. Şairin digər müsəddəslərinin də yüksək sənətkarlıqla yazıldığını görürük.

Nacinin müxəmməslərindən birində belə bir bənd var:

***Bazi-eşqin bu təzərvi-ruhumi qıldı şikar,***
***Daneyi-xali-ləbin gördi, dil oldi biqərar,***
***Əşk həsrətxaneyi-səbrim qılubdur tarümar,***
***Gər vəfatımdan yüz il keçsə olur həm aşikar:***
***Üstüxani kəlləm içrə buyi-eşqindən əsər.***

(Divan, v. 19b)

Bu bəndin dördüncü və beşinci misralarındakı əsas söz-obrazlar Füzulinin təxmis yazdığı Həbibi qəzəlini xatırladır. Yenə döşünürük ki, bu Həbibi şeirinin birbaşa özündən yox, Füzuli təxmisindən gəlir. Həbibi qəzəlində həmin fikirlər aşağıdakı kimidir.

***Çıxmaya sevdayi-zülfün başdan, ey məh, gər yüz il***
***Üstüxani-kəlləm içrə dutsa əqrəblər vətən.***

Naci Həbibi obrazlarını bir balaca başqa formada qələmə alır. Ancaq ondan yan ötə bilmir. Hisslərini onlarla ifadə etməyi daha münasib görür. Sələfinin poetik kəşfi onun da ruhunun, qəlbinin, eşqinin ifadəsi üçün ən dəqiq vasitə olur. Bu eyni zamanda Nacinin öz sələflərinə hörmətinin, onu bildiyinin təsdiqidir.

Naci qəzəlləri fikir və sənətkarlıq baxımından rəngarəngdir. Bu şeirlərdə eşq insan həyatının dürlü cəhətləri ilə birləşir. Naci qəzəllərində eşq həm ilahi, həm bəşəridir. Bu şeirlərdə həm Füzuli ruhu var, həm də şairin yaşadığı dövrün qaydaları. Onun "İçitdirdin bana ruzi-əzəl bir sağər, ey saqi" misrası ilə başlayan qəzəlində fikirlər rəngarəngliyi ilə diqqəti cəlb edir. İlk misrada şair saqinin, başqa sözlə ilahinin əzəl günü, yaradılışın başlanğıcında ona bir qədəh şərab içirtdiyini bildirir, ancaq bu qədəh ona ləzzət yox, möhnət verib. Bu şərab onda eşq duyğuları oyadıb, ona düzlük, hallalıq, təmizlik ruhu bəxş edib. Ancaq zaman elə bir vəziyyətdədir ki, bu keyfiyyətlər möhnətə səbəb olur. Aşağıdakı beytlərdə bu cəhət daha açıq ifadə olunur:

***Yapub memari-qüdrət xaneyi-könlüm nə saətdə***
***Ki, olmuş bu xarab olmuş əzəldən div yığnağı.***
***Qızıl qanə boyanmış mürği-dil daim qılur nalə,***
***O tərlanın dökübdür dəmbədəm çənqalü qiynağı.***
***Qara zülfün ucundan qarə geymiş bu qara bəxtim,***
***Qalubdur taqətim taq, ey gözəl əbrulərin tağı.***

Bu misralarda şairin kədəri əks olunur. Günahkar isə zamandır. Aşağıdakı misra Füzulinin "Məni candan usandırdın" qəzəlindəki uyğun beyti xatırladır.

***Axıtdım gül yüzün görgəc gözümdən əşki-xunalud,***
***İlahi! Bu, nə hikmətdir, axar su tirə gül çağı.***

Bu beytdə Füzulinin məşhur “Həbibim, fəsli-güldür bu, axar sular bulanmazmı?” misrası “İlahi! Bu nə hikmətdir, axar su tirə gül çağı” şəklinə düşmüşdür. Bu qəzəlin son iki beyti də Naci üslubuna xasdır.

***Müəttər saçlarından ətr alub həm bağ, həm səhra,***
***Fəzayi-Çinə dönmüşdür məgər bu Gəncə torpağı.***
***Bu gülzarın təmaşasından olma ğafil, ey Naci!***
***Dəlili-əhli-hikmətdir anun hər bərgü yaprağı.***

Əslində Nacinin qəzəlləri də dünyanın, həyatın hikmətlərindən söz açan sənət inciləridir.

Bu qəzəllə bağlı bir cəhəti də qeyd edək ki, Nacinin bu qəzəlinin müəllifini bilmədiyimiz bir paraleli də vardır. Həmin paralel qəzəli Almaniyadan Mirzə Şəfi Vazeh şeirləri ilə birlikdə xanım Sevil Fuks göndərmişdir. Onun göndərdiyi şeirlər arasında həqiqətən Vazehə məxsus olan şeirlər vardır. Onların bəzilərində Vazeh təxəllüsü də işlənir. Onlardan biri də “Onca” yəni “orda” rədifli farsca qəzəldir. Naci "Divan"ında da eyni rədif və mövzuda yazılmış farsca qəzəl vardır. Nacinin sanki nəzirə yazdığı haqqında danışdığımız qəzəldə təxəllüs yoxdur. Şeir son dərəcə ustalıqla yazılmışdır. qəzəlin ilk və son beyti aşağıdakı kimidir:

***Çəküb rüxsarə yapıncı, edər can qəsdin ol yaği,***
***Könül Dərbəndini çapdı qoyanda başə qiytağı.***
***...Bitən hər gül olur xoş bu təalıllah bu gülşəndə,***
***Gülüstani-İrəm bolmuş sanasan Qübbə toprağı.***

Şeirdə Dağıstandan, kumıq xalqından, Qubadan söhbət gedir. Naci təbiidir ki, qəzəlini bu şeirə nəzirə kimi yazmışdır. Bu şeirdə Quba Gülüstani-İrəm adlandırılırsa, Naci Gəncəni gözəllərinin saçlarının ətri ilə Çin fəzasına dönmüş bir şəhər hesab edir. Bu şeirdə Çin dedikdə Turan, türklərin yaşadığı ərazi, ceyranları, onlardan alınan mişk ətri ilə məşhur olan Xəta və Xütən kimi türk yerləri nəzərdə tutulur. Nizami Gəncəvi əsərlərində də Çin sözü Turan, türklərin yaşadığı yer mənasında işlənmişdir.

Nacinin Vazehlə bağlılıtı, onunla ədəbi əlaqələri hələ tamam öyrənilməmişdir. Vazeh, Naci və Nasehin A.Bakıxanovun "Şəklin göstərir" rədifli şeirinə birlikdə yazdıqları nəzirəni də Naci qələmə almışdır. "Divani-hikmət" üzvlərindən Fazil xan Şeyda həmin qəzələ müstəqil nəzirə yazmışdır. Vazehlə Naci arasında əlaqələr, münasibətlər çox olmuşdur. O cümlədən, onların hər ikisinin farsca eyni mövzuda "Onca" (yəni "Orda") rədifli qəzəli vardır. Vazehin qəzəli "Cayi ke təsəvvor nəbərəd pey besər onca" misrası ilə başlayır. Həmin qəzəlin tərcüməsi aşağıdak kimidir:

***Harda ki, təsəvvür sona yetməz gəzər orda,***
***Gözlər necə bəs onda tapar bir nəzər orda.***
***Sərçə hünərinlə murad axtarma o çöldə***
***Qartallar o qüdrətlə qanad tökdülər orda.***
***Çox təşnələrin sellər axıb burda başından,***

***Amma qurumuş bir dodaq olmadı tər orda.***
***Bax dərdə o yerdə dilərəm məqsədə yetmək,***
***Heç görmürəm əsla mən özümdən əsər orda.***
***Bilməm nə eşitmişdi xarabatda Vazeh,***
***Qaldı yıxılıb birdəfəlik bixəbər orda.***

Naci də farsca yazdığı bir qəzəldə eyni mövzuya üz tutur. Bizim gəldiyimiz və qayıdıb gedəcəyimiz yer necədir. Orada nə var? Naci də eyni rədiflə yazdığı qəzəldə bu mövzu ətrafında düşündüklərini qələmə almışdır. Nacinin qəzəlinin tərcüməsini təqdim edirik:

***Bir yol ki səsə görmədi kimsə əsər orda,***
***Yoxdur qapı, o qəsrə, dolanma hədər orda,***
***Bir sərçə gücünlə bu çölə basma ayaq, dur!***
***Qartallara tökdürdü bu çöl balü pər orda.***
***Tülkü sifət, ey nəfs, o ovun düşmə dalınca,***
***Verdi başını şir ü pələnglər yetər orda.***
***Mətləb bu qapı olmayan evdə elə gizlin,***
***Yox kimsədə açmağa bir hünər orda.***
***Getdi ərəb at, oldu bu yolda ayağından,***
***Hardan tapa qüdrət bu yola onda xər onda?***
***...Naci! Belə işlərdə görən göz hanı səndə?***
***Çıxma yola, zinhar, belə bibəsər orda.***

Bu qəzəldə biz Nacinin Vazehdən təsirləndiyini, onun bəhs etdiyi mövzuda öz qənaətlərini əks etdirdiyini görürük. Vazeh yaradıcılığının “Divani-hikmət”in

fəal üzvlərindən biri kimi Naciyə təsirini bu qəzəldən də aydın görürük.

Burada yeri gəlmişdən Vazehin farsca yazılmış bir qitəsinin də Azərbaycan dilinə tərcüməsini təqdim edirik. Bunu həm də ona görə edirik ki, Vazehin bu qitəsində ifadə olunan fikir Naci şeirlərində də öz əksini tapmışdır. Vazeh qitəsinin tərcüməsi belədir:

***Qorucun tanrı olsun, ey cavan kəs***
***Ki, səndən görmədim bir şad ürək mən.***
***Ad, ünvan qatili kimdir, soruşma,***
***Qan içrə yerdə qurban çırpınırkən.***
***A Vazeh! Qafil olma qafil ahdan;***
***Tutar bir qafil ah, bil, qafili sən.***

Hər bir əməlin mükafatı olduğu ədəbiyyatda dönə-dönə işlənmişdir. Naci də şeirlərində bu həqiqəti tez-tez dilə gətirir. Vazehin qitəsində bu motiv bir az başqa şəkildədir. Təkcə qoyun qurbanı verilmir. Ən qədim dövrlərdə olduğu kimi indi də müxtəlif adlarla insanlar da qurban verilir. Bu məqamlarda qatil kimdir? Vazeh bu qatillərin də gec-tez cəzalarını alacaqlarını bildirir.

Ancaq Vazehlə Mirzə Mehdi Naci yaradıcılığını eyni səviyyədə görmək doğru olmazdı. Vazeh dünyanı necə var o cür görən, bütün ehkamlara layiq olduğu tərzdə yanaşan bir fikir adamıdır. Naci halal, dürüst bir insan olmaqla bərabər bir din adamıdır, bir şiə təəssübkeşidir, Əli, 12 imam vurğunudur.

Vazehin

***Ey bizim hücrədaş! O dəftərini zöhdün yu!***
***Ey qədəm sabit olan! Get həmişə eşq yolu.***
***Yar üzündən de sözü sən bu qəmin vurğununa,***
***Sən bu qəlbi gedənə ancaq o yardan söz oxu.***

misraları da, elə bil ki, Naciyə ünvanlanmışdır. Xatırladaq ki, "Divani-hikmət"in üzvləri çox vaxt Vazehin Şah Abbas məscidinin hücrəsində toplanırdı. Naci də A.Bakıxanovun "Şəklin göstərir" qəzəlinə nəzirənin də həmin hücrədə yazıldığını qeyd edir. Görünür ki, Nacinin "Divani-hikmət" məclislərində oxuduğu şeirlərin çox vaxt zöhdlə bağlı olduğunu görən Vazeh həmin şeirini yazmalı olmuşdur.

Mirzə Mehdi Naci yaradıcılığına M.P.Vaqif yaradıcılığının təsirini də inkar etmək olmaz. Onun "Ağlarsan" rədifli hecə vəznində yazılmış qoşması bir başa Vaqiflə Vidadinin məşhur deyişməsinin təsiri ilə yazılmışdır. Nacinin də şeirinin əsas mövzusu qocalıqdan şikayətdir. "Bax" rədifli şeirini isə Naci Vaqifin "Bax" rədifli qəzəlinin təsiri ilə yazmışdır. Əgər Vaqif Qacarın Şuşada öldürülməsi ilə bağlı dünyanın etibarsızlığı barədə düşüncələrini əks etdirirsə, Naci təbiət və cəmiyyətdə tarixən və öz dövründə baş vermiş hadisələri xatırlayır, ibrət almağa çağırır. Vaqifin şeiri “Ey Vidadi, gərdişi-dövrani-kəc rəftarə bax” sözləri ilə başlayırsa, Naci də şeirini eynən həmin misraya uyğun sözlərlə başlayır və

yazır: “Daireyi-gərdişi-dövranə bax”. Naci şeirinin ayrı-ayrı beyt və misralarında da Vaqif qəzəlini xatırladan məqamlar vardır.

Nacinin Ağa İsmayıl Zəbihlə dostluğu, onunla məktublaşması, kədərli, bədbin çağlarında onu nikbin olmağa çağırması, dəlillər gətirməsi yenə Vaqif və Vidadi münasibətlərini yada salır. Bu cəhətdən onun Ağa İsmayıla ünvanladığı şeirdəki aşağıdakı beytlər fikrimizi təsdiq edir:

***Olma ikrah, əzizim, Hacıdan olma məlul,***
***Əhli-dillər keçürübdür bu tövr dünyani***
***Gər bu dünya zəhəmatinə kişi səbr etməz,***
***Sən yəqin bil tapa bilməz o kişi üqbani.***
***Xeyrdir hər nə ki, vaqe ola dünyada sana,***
***Təng dutma ürəgin, fikr eləmə fərdani.***

Düzdür, Naci fikirlərini daha çox dini dəlillərlə izah etməyə çalışır. Bunu qəzanın işi, rəbbani bir əmr kimi qiymətləndirir. “Bax əhadisə, nəzər eyləgilən ayatə” deyə nəsihətinin doğruluğunu əsaslandırmağa çalışır. Bununla bərabər onun da fikirlərində “Toy-bayramdır bu dünyanın əzabı, Ağlı olan ona gətirər tabı” aurası var. Naci də Təbrizdə yaşayan Gəncəli dostu Ağa İsmayılı bədbin, kədərli fikirlərdən uzaqlaşdırmağa çalışır. Bu baxımdan o, böyük sələfi Vaqiflə birləşir.

Naci şeirlərinin əsas tənqid hədəfi riyakar, acgöz, hiyləgər, oğru ruhanilərdir. Şair həqiqi bir din adamı kimi Allaha yalvarır ki, bizə həqiqi bir imam, əhli-batin bir molla bəxş elə ki, sərgərdan qalmayaq. O, Gəncə məscidində həqiqi bir din adamı görmür və yazır:

***Qaçaram mən bu meçiddən, səbəbi bunlardır,***
***Görməgə tab gətürməm, bağrım olubdur həme qan.***
***Əgləşüb cayi-peyəmbərdə neçə nakəslər,***
***Neyləsün Mehdi buna, çarə nədir, ey rəhman.***
***Hər görəndə gözümə niş dəgər, tarı bilür,***
***Tab yox məndə edəm bu məkri-nihana təvan.***
***İxtiyari-yola getmək əgər olsa məndə,***
***Mən də bu xalq kimi gedər idim yaxşı-yaman.***
***Görürəm batini-əhvallərin cümlə hiyəl,***
***Ol zaman qəlbim olur ziru zəbər, həm viran.***

Naci bu ruhanilərin sifətlərini bütün təfərrüatı ilə qələmə alır. Şair xalqın dərdinə qalan bir insan görmür. Dillərində dünya malını məzəmmət edən ruhanilərin özlərinin dünya malını yığıb lüm-lüm udduqlarını qeyd edir. Arada bir rus divanını da qamçılayır:

***O ki divvani-urusdur, eləyür zalimə lütf,***
***Xaneyi-əhli-şəriət dəxi olmuş viran.***
***Yoxdu bir əhli-şəriət, edə məzlumə kömək,***
***Heç kəsin dərdinə olmur dəxi hasil dərman.***

Naci həmin bu şeirdə Gilan əhli olan Molla Hüseyn Pişnamaz haqqında da söhbət açır. Onun Gəncəyə gələndə adamlar arasında bir iğtişaş törətdiyini, adamları iki firqəyə böldüyünü, özünün onu doğru sayıb xeyli müddət ona qulluq etdiyini, ancaq bir müddət sonra onda elə bir fisq, dinə zidd elə bir qüsur görür ki, ondan üz döndərir.

Naci "Yenə dinsiz molla haqqında" adlı şeirində mollaları eninə-uzununa tənqid edir. Şairin ruhani silkinə münasibətini aydınlaşdırmaq üçün bir neçə beyti oxucuların nəzərinə çatdırırıq.

***Getmə, sail, dərinə mollanın!***
***Yetmək olmaz sirinə mollanın.***
***Daima taəti şeytanə elər,***
***Lənət olsun pirinə mollanın.***
***Nə qədər var həyatın qaç, qaç,***
***Getmə yavuq birinə mollanın.***
***İki dünyada üzü ağ olacaq,***
***Düşməyən əllərinə mollanın.***

Nacinin "Taxıl qıtlığı və şəhər əhalisinin halının pisliyi" şeirində əsas mövzu əhalinin qıtlıqla bağlı ağır vəziyyəti olsa da, yenə din və məscid mövzusuna qayıdır və yazır:

***Minnət qəbul eyləmənəm hər itdən,***
***Geyərəm əgnimə qədəkdən, çitdən.***

***Anınçün qaçaram mən bu meçitdən,***
***Dəgməsün bunlardan bana sədəmat.***
***Salahdur bu vəqti oturmaq yalquz,***
***Görmərəm dəhrdə bir yari-dilsuz,***
***Çəkilmişəm bir guşəyə şəb ü ruz.***
***Bir mənəm, bir kitab, bir qələm-dəvat.***

Mirzə Mehdi Naci "Divan"ındakı şeirlər yaşadığı dövrün rəngarəng bədii ifadəsidir. O, çox vaxt konkret, canlı insanlardan söhbət açır, onlar haqqında fikirlərini dilə gətirir. Çəkinmədən, qorxmadan hər kəsin portretini yaradır, alqışlayır, pisləyir, xəbərdarlıq edir. Və bütün bunları halal, dürüst, dindar bir qəlbin diktəsi ilə edir.

Naci yaradıcılığında müxtəlif adamlar haqqında yazılmış həcvlər də vardır. Bunlardan az qismi bəzi Gəncə mollalarına həsr edilmişdir. Onun həcvlərinin çoxu Qarabağ şairlərindən Asi, Yusifi və Növrəsin yazdığı həcvlərə cavab tərzində qələmə alınmışdır. Bunlardan da birincisi Abdulla bəy Asinin Natəvan haqqında yazdığı həcvə cavabdır. Knyaz Xasay xanın ölümündən sonra Qarabağda bir çoxları elçi göndərərək Natəvanla evlənmək istədiklərini bildirirlər. Asi də elçi göndərir, ancaq onun da təklifi qəbul edilmir. Natəvan kasıb Seyid Hüseynə ərə gedir. Asi bu işdən bərk qəzəblənir. Natəvan haqqında əxlaqdan, tərbiyədən, insanlıqdan uzaq, kin, küdurət dolu bir həcv yazır, surətini Gəncəyə, Şirvani, Qazağa göndərir. Asi həmin həcvdə Natəvanı

ən alçaq ifadələrlə, böhtan və hədyanlarla ləkələməyə cəhd edir. Bu həcvə ən kəskin cavablardan birini Seyyid Əzim Şirvani yazır, Asini qeyrətsiz, nakişi, kişiliyin nə olduğunu anlamayan, nankor, eşşək, köpək adlandırır. Nəzərə alaq ki, Asi Natəvanın bibisi nəvəsinin oğludur. Asidən doqquz yaş böyükdür. O biri yandan Asinin atası pambıq satmaqla dolanan kasıb bir adam imiş, Natəvanın atası onu oğulluğa götürüb, bəylik verib, bacısı oğlunun qızı ilə evləndirib. İkincisi, əgər Natəvan onun yazdığı kimi idisə, o, hansı qeyrətlə belə bir adamla evlənmək istəmiş və elçi göndərmişdir? Naci yazır: "Qarabağ şairlərindən Asi təxəllüs həsəd üzərindən mərhum Mehdiqulu xanın qızına həcv yazıb, Gəncəyə göndərib. Gördüm xalq arasında oxuyub gülürlər. Halbuki cəddi pambuqatan olub. Mərhum xan onu gətirib, saray yaxınlarından edib, yaxşı mənsəb sahibi edib, hələ bəyzadə edib. Bəndəyə onun bu sifəti çox pis gəldi. Başqa səbəb odur ki, mərhum Cavad xanın nəvələrindən idi. Təəssüb hissi ilə onun cavabını yazıb, qohumlarına göndərdim".

Naci öz həcvi ilə bərabər Asinin həcvini də “onların həcvi” qeydi ilə divanına daxil etdiyindən Ə.Ə.Səidzadə yanlış olaraq elə başa düşmüşdür ki, Asiyə məxsus olan həcvi də Naci yazıb. Nacinin Asiyə yazdığı cavab o qədər kəskin olmasa da, əsas məqamları çox dürüst və dəqiq əks etdirdiyindən Asi və onun qələm yoldaşları olan Yusifi və Növrəs Nacini həcv yağ-

muruna tuturlar. Naci də onların həcvlərinə cavablar yazır. Naci cavab həcvlərində onlara bildirir ki, sizin yazdıqlarınız hədyan və böhtandır. Dediklərinizin heç biri məndə, mənim ailəmdə yoxdur. Ancaq mən Qarabağa gedib gələnlərdən sizin haqqınızdakı həqiqətləri öyrənirəm və həqiqətləri yazıram.

Asinin həmin həcvində Natəvan, Fatma xanım Kəminə, Xasay xan, Seyid Hüseyn və digərləri ən alçaq, ən ləyaqətsiz ifadələrlə təhqir edilir. Və mən təəccüb edirəm ki, belə bir kəsi şair sayıb ədəbiyyat tarixinə daxil etmişlər, onun yaradıcılığına mədhiyyə oxumuşlar. Halbuki belə bir alçaqlığa yol verən kəsə etiraz səsini ucaldan şəxsin adı ədəbiyyat tarixində yoxdur. Zaman Əsgərli görünür ki, nə Nacinin "Divan"ını görüb, nə Asinin həcvini oxuyub.

Bizi Firidun bəy Köçərli kimi büllur bir şəxs də təəccübləndirir. XX əsrin əvvəlinin ən böyük ədəbi, elmi simalarından biri olan, varlığı xalis brilyantdan yoğrulmuş bu adam Asinin həcvini dəqiqliyi ilə bildiyi halda onun yaradıcılığı haqqında geniş söhbət açır. Onu Füzuli ilə müqayisə edir. Füzuli ilə müqayisə olunan kəsin gərək Füzuli bütövlüyünə, paklığına yaxınlaşan xüsusiyyəti ola. Natəvan kimi ilahi bir şəxsiyyətə ləkə yaxmağa cürət etməyə.

M.M.Naci yaradıcılığı ilə dövrünün mütərəqqi ideyaları cəbhəsində durmuş, haqqın, həqiqətin, insanlığın, ləyaqətin, dürüstlüyün keşiyində dayanan bir sənətkar

kimi yazıb yaratmışdır. Onun həcvləri də hər cür əyriliyə, haqsızlığa dözümsüz olmağının nəticəsidir. Asinin paxıllıq və həsəd üzündən Natəvana həcv yazmasını qəbul etməmiş, ona cavab yazmış, bundan narazı qalan Asi, Yusifi, Növrəs ona həcvlər yazıb göndərəndə, o da cavab yazmağa məcbur olmuşdur. Onun "Divan"ında olan həcvlərin çoxu Asinin Natəvana yazdığı həcvə Nacinin cavab yazmasından qaynaqlanır. Bu işdə əsl günahkarlar Asi, Yusifi və Növrəsdir. Naci həqiqəti yazdığına görə hücuma məruz qalıb və özünü müdafiə edib. Ona görə 1960-cı ildə nəşr edilmiş üç cildlik "Azərbaycan əbədiyyatı tarixi"nin ikinci cildindəki aşağıdakı sözləri ədalətsiz sayıram. "XIX əsrdə Gəncədə Mirzə Mehdi Naci, Qarabağda Canı oğlu Abdulla, Salyanda İbrahim Asi, Şamaxıda Seyyid Əzim Şirvani, Cənubi Azərbaycanda Ləli kimi şairlər çoxlu həcv yazmışdılar. Bunlardan ancaq S.Ə.Şirvani sonralar öz yaradıcılığında ictimai satira yoluna keçə bilmişdi" (səh. 38). Yuxarıdan bəri dediklərimiz və Nacinin "Divan"ı onun haqqında olan bu qənaəti rədd edir. Naci əslində yersiz, böhtan və hədyandan ibarət olan həcvlərə qarşı mübarizə aparmış və qoca yaşlarında Qarabağ şairlərindən Asi, Yusifi və Növrəsin həcv hücumlarına məruz qalan bir sənətkar olmuşdur.

# Qəzəllər



هدف تیر که فدا سینهٔ من    مرغ دل در کف و چنگال بهر باز شکار

بر دار زاهد پاکیزه ز من ورد بگذر    بچه کار آمده ام آمده نم بهر چکار

ساقیا توبه شکستم بدم قاضی شهر    سنجد دل تنگ شدم یکه در ساغر بمن آر

مژه بر هم نزنم گر بزنندم همه تیر    از نظر ار برود صورت آن چشم خمار

خسته حالم بتمنای لب شیرینت    بعلاج دل من کوش تو کای بیمار

هر جفا کز تو برمن برود خوشحالم    بهمین شرط نباشی ز من ای گل بیزار

شغل من در همه اوقات فغان و نالم    چشم خونبار من ای جان همه شب بیدار

تا چه پایی برانداز مخور غم که زوند    کوس رسوائی تو در همه شهر و بازار

ولَه ایضاً

از ازل چون دل من با تو بهم بر بستند    باعث آنست که غیر از تو مرا نیست پسند

باده عشق تو جز من همه کس گشته حرام    ورنه طالب بلب لعل تو بسیار کسند

ناوک تیر نگاهت بگذشت از دل و جان    زلف پرچین تو بر گردن جان گشته کمند

* * *

Bu cəhanın işləri, ey dil, təmam aşüftədir,
Urma əl hərgiz ona bir əjdəhayi-xüftədir.
Bağlama bel bu cəhanın işlərinə, ey gözüm,
Etibar etmə bu ömrə, axırı bir həftədir.
Ey o kəslər ki, sizə üz göstərə dünyayi-dun,
Bilməyin ki, bu cəlalü cah sizdə müftədir.
Püxtədir ol kimsə kim, meyl eyləməz bu aləmə,
Ol ki dünya ilə həmağuş olur, napüxtədir.
Hər nə mövcudat görsən dəhrdə sən, ey gözüm,
Cümlə bir mənbədən ayrılmış qamu bir nöqtədir.
Sirrlər çoxdur bu qəlbimdə və lakin yoxdu yer,
Bu əvamunnasdan məhcubdur, naqöftədir.
Vaqifi-sirri-rümuzatı-xudavəndi-cəlil
Ol könüllərdir xəsü xaşaklərdən rüftədir.
Naciya! Xaliq işin fikr eyləyən yoxdur əcəb,
Hər nə mövcudat görsən, cümləsi bir nöktədir.

* * *

Yandı canım hicrdən ruhi-rəvanım gəlmədi[1],
Çıxdı əflakə fəğani-ələmanım gəlmədi,
Keçdi ömrüm, natəvan oldu tənim, ey vay kim
Bu təni-rəncurimə bir dəxi canım gəlmədi.
Keçdi əyyami-bəharım, gözlərim gözlər yolu,
Noldu, yarəb, bülbüli-şirin zəbanım gəlmədi.
Gəlmədi, aya səbəb noldu vücudum səhhəti,
Deməgə bir kimsə yox, sirri-nihanım gəlmədi.
Dinü imanım nə müddətdi gedüb bəndən uzaq,
Çünki yarım gəlmədi, dinü imanım gəlmədi.
Seyli-ğəm peyvəstə qıldı munhədim dil mülkünü,
Mülki-dil məmurinə ol mehribanım gəlmədi.
Getdi tab ilə təvanım cümlə əldən, Naciya!
Bu təni-zarə neçün tabü təvanım gəlmədi.

[1] Bu şeir Təbrizə gedən Gəncəli şair Ağa İsmayıla ünvanlanmışdır.

* * *

Dərgəhi-piri-muğan əmnu əmanım mənim,
Tacü külahü nəməd sövkətü şanım mənim
Səbrü qərarü şəkib getdi əlimdən təmam,
Təndə dəxi qalmadı səbrü inanım mənim.
Tabü təvan qalmadı bər məni-biçarədə,
Aldı bu məhpeykəran tabü təvanım mənim.
Getdi əlimdən təmam əqlü delü can ü huş,
Vəqfidi məhrulərin təndə bu canım mənim.
Getsə nəzərdən əgər ruhi-rəvan bir zəman,
Eylə yəqin gedirər ruhi-rəvanım mənim.
Ol məhi-namehriban ülfəti məndən kəsə,
Ərşi-bərindən keçər ahü fəğanım mənim.
Olsa müyəssər mana vəsli o dildarımın,
Getməz əlimdən dəxi iki cəhanım mənim.
Gülşən ara sərvlər cümlə sınıqlıq tapar,
Getsə əgər gülşənə sərvi-rəvanım mənim.
Aldı əlimdən təmam hər nəyə malik idim,
Apardı Sənan kimi dinü imanım mənim.
Dil ataram hər yana yoxdu bana dadrəs,
Dadrəsim olmağa yoxdu gümanım mənim.
Dustlərim getdilər yoxdu dəxi bir rəfiq,
Duşmənim olmuş həris tökməyə qanım mənim.
Nəti-əzimi imiş dəhrdə yaxşı rəfiq,
Dustdurur hər zaman virdi-zəbanım mənim.
Sudü ziyanın bilən dəhrdə yox, Naciya!
Birdi nəzərdə dəxi sudü ziyanım mənim.

* * *

Şanə hər dəmdə ki, ol zülfi-pərişanə dəgər,
Tari-mulər dağılub hər biri bir yanə dəgər.
Şövkəti-şan ilə cahin sənin, ey sahənşah,
Rifəti-dəbdəbeyi-cahi-Süleymanə dəgər.
İki yaqut ləbin müntəzəmi-dəndanın
Künci-viranda olan lölöi-mərcanə dəgər.
Atma qəmzən oxuni, xövf elə zülm etməkdən
Ki, atan dəmdə gəlüb hər biri bir canə dəgər.
Qaşların tiği sənin bəs ki olub zəngalud
Çünki adət eləyüb hər gün olar qanə dəgər.
Könlümə vurdu cəfa oxlarını müjganın,
Afəti-dəhr dəxi bir gün o müjganə dəgər.
Zahida! Olma məlul əldəki peymanəmdən,
Ədəmi-sidqin ilə səndəki peymanə dəgər.
Təni-zarimdə bəsi sanculudur peykanın.
Atasan yüz kərə peykanını peykanə dəgər.
Daneyi-xali-rüxi-yarə nəzər sal, zahid,
Billah ol cəbheyi-səddanənə bir danə dəgər.
Naciya, salma nəzər mahlıqalər yüzünə,
Atəşi-məsiyyətin pənbeyi-imanə dəgər.

* * *

İçitdirdin  bana ruzi-əzəl bir sağər, ey saqi!
Budur vəchi ki, hərgiz ləzzətim yox, möhnətim baqi.
Yapub memari-qüdrət xaneyi-könlüm nə saətdə
Ki, olmuş bu xarab olmuş əzəldən div yığnaği.
Qızıl qanə boyanmış mürği-dil, daim qılur nalə,
O tərlanın dökübdür dəmbədəm çənqal qıynağı.
Qəra zülfin ucundan qarə geymiş bu qara bəxtim,
Qalubdur taqətim taq, ey gözəl, əbrulərin taqi.
Görüb çeşmin xəcalətdən baxar nərgiz yanağ üzrə
Üzarın həsrətindən lalənin köksündə var dağı.
Axıtdım gül yüzün görgəc gözümdən əşki-xunalud,
İlahi, bu nə hikmətdir axar su tirə gül çaği!?
İki zaği-siyəh, ey bağiban girmiş bu gülzarə,
Sana kim verdi rüxsət gülsitanə qoymusan zaği?
Müəttər saçlarından ətr alub həm bağ, həm səhra,
Fəzayi-Çinə dönmüşdür məgər bu Gəncə toprağı.
Bu gülzarın təmaşasından olma ğafil, ey Naci!
Dəlili-əhli-hikmətdir anın hər bərg, yaprağі.

* * *

Sən bilmə ki, pərvanə özin narə buraqmış,
Nurin həvəsilə özini yarə buraqmış!
Xəffaşə verür şöleyi-xurşid yüz afət,
Çeşmini anın saneimiz tarə buraqmış.
Ğəm ləşkəri məhsur eləyübdur dili-Qeysi
Məşəlın anın sübh ü məşa zarə buraqmış
Çox kimsəni məsrur eləyub dəhrdə xoş hal
Çox kimsənin iqbalını idbarə buraqmış.
Əfğan çəkər ol bülbüli-biçarə şəb ü ruz
Gül vəslini gör kim necə ol xarə buraqmış.
Əvvəl güni təyin eləyüb hər kəsə bir mövt,
Bais budi Mənsur ölümün darə buraqmış.
Dəryadan alur mai bulut əmr olunanda,
Sırab nəbat etməyə ənharə buraqmış.
Gəh ləşkəri cərradə deyir: buğdanı get ye,
Gəh hasili puç etmək içün farə buraqmış.
Zöhhad həvəsin məscidü mehrabə salibdir,
İxlas ilə tərsani də zünnarə buraqmış.
Aşiqlər edir zülfə pərəstiş gecə-gündüz,
Məbud bilüb şüğli bəri-tarə buraqmış.
Bəslər bədənin nardə ol mürği-səməndər,
Ol sanei-biçun onu da narə buraqmış.
Davudə verüb sövti-həsən etsün ibadət,
Taətlə anın felini mizmarə buraqmış.
Fərhadı salub atəşi-eşq içrə ki get yan,

Avarə qoyub Qeysi də kuhsarə buraqmış.
Bir parədi zahirdə yurək sinə içində
Batində əcəbdir bu ki, sədparə buraqmış.
Zərdüştə verüb atəşi göndərdi cəhanə,
Tabəndəlik etməkligi odlarə buraqmış.

* * *

Hər nə nemət ki, xuda xalqa verüb bad aparur,
Dəst xali qalu, hər kimsənə fəryad aparur.
Demə kim aləm ara nemət gəzməz kim var
Özgələr bilməz anı ləzzəti ustad aparur.
Bir mələk peykəri bəslər neçə il atə-ana,
Rənci munlar çəkir, amma kefi damad aparur.
Eşqi-Şirin eləyübdür dili-Fərhadı zəbun,
Vəslə Xosrov yetişüb zəhməti Fərhad aparur.
Tikəsən bir evi anda edəsən ömri-təvil,
Ləzzəti sən aparursan, zoru bünyad aparur.
Quruban ximəni anda olasan farığbal,
Sənə işrət yetişür, zəhməti ovtad aparur.
Ola şagirdin əgər əqli başında möhkəm,
Cövrü ustad çəkir, axırı irşad aparur.
Qıldı amadə behişti bu cəhanda Şəddad,
Görmiyüb hiç onu həsrəti Şəddad aparur.
Yetməz ikrah ilə heç kimsənə fərmani-həqə,
Həqq fərmanını ol kimsənə kim şad aparur.
Kim ki xəlq ilə edər xültə çəkər dadü fəğan,
İşrəti olmaz anın qəbrə həmin dad aparur.
Əhli-Bağdad aparur neməti-dünyadan hifz,
Zəhməti həşrə kimi ol poli-Bağdad aparur.
Qövmi-Adi necə bərbad elədi bir tufan,
Bu bəlanı özü öz başına ol Ad aparur.
Nə qədər dəhrdə dövlət yığasan puçdur, puç.

Hərə bu dəhrdə bir yaxşı-yaman ad aparur.
Dövri-münim aparub hər şeyə ki malik idin,
Ölsə bir kimsə belə rəxtini cəllad aparur.
Al nəsihət bu dəni dəhrdə fəssad kimi,
Xatəmi-şahdən ol aqili-fəssad aparur.
Xaneyi-qəlbini sən eyləmə, ey Naci, xərab,
Xoş anın halına kim qəlbini abad aparur.

* * *

İnani-ixtiyarım aldı əldən bir büti-tərsa[1],
Salub dil mülkünə bir nazilə yüz şurişü qovğa.
Məlahət ləşkərini dəstə-dəstə cəm edüb gəlmiş,
Baxış birlə qılub dil kişvərin tarac, həm yəğma.
Əcəb əyyarü düzdü dilfiribü dilrübadır bu,
Hezaran xuni-aşiq gər tökərsə, baki yox əsla.
Çəlipa saçların əfşan edüb məhtabi-rüxsarə
Ki, guya mahtabə mane olmuşdur şəbi-yəlda.
Hilali-abrudən daima qanlar tökər pünhan,
Nə qandır bu ki, göz dərk eyləməz rəngü gülü peyda?!
Du çeşmi-nərgizi-məstin əgər görsə, xəcalətdən
Olur şərməndə, çıxmaz dışra, billah, nərgizi-şəhla.
İki gül bərginə bənzər ləbani-şəkkər əfşani,
Nümayandır sədəf ağzında dürri-lölöi-lala.
Ayağın basma bustanə bu hüsn, bu təravətlə,
Həsəddən zərd edər rəngin yəqin narınc ilə heyva.
Görə bu hüsni gər bülbül, deyər şimdi bənəm ğafil,
Qılur dil mülkini xali, məhəbbətdən olur şeyda.
Gəlub şeyri-gülüstanə nigarım bu vəcahətlə,
Xuram eylər nəzakətlə geyinmiş ətləsü xara.
Keçüb Fərhadü Məcnun növbəti, şimdi bənəm Məcnun

[1] Bu mənzumə Tiflisdə deyilmişdir. Bütün qeydləri Naci özü yazıb. Onları şeirlərin əvvəlində farsca yazıb. Biz onları ənənəvi qeyd yerinə endirdik. *Xəlil Yusifli.*

Təmaşa qıl, gözüm, gör kim, budur Şirin, həm Leyla.
Əya ey şux çeşmü şux mənzər, xoş rəviş dilbər,
Məgər təhsil edüb səndən bu rəngi laleyi-həmra.
Nəzər saldım gülüstan içrə mən hər güllərə bir-bir,
Degil peyda bu gülzar içrə səntək bir güli-rəna.
Zəkati-hüsndən bir busə könlüm dilər, cana,
Tərəhhüm qıl bəni-miskinə, ey tərsa, səni-İsa!
Həriqi-nari-eşqindir fəraqindən tənü canım,
Yetər munca cəfalərdən usan bir, ey mələk sima.
Əgərçi rəsmdir məşuqə olmaz cövrsüz hərgiz.
Xudaya! Olmasun hiç aşiqin məşuqu bipərva.
Gər istərsən vüsali-dilbərə yetməkligi, ey dil,
Hicabi-abruni at, cəhanda ta ki ol rüsva.
Məsəldir, Naciya, derlər olur cuyəndə yabəndə,
Sən ummid ilə get ol dilbərin kuyində dut məva.

* * *

Ola bir dəsti-dil aram dutum,
Mey içim, badeyi-gülfam dutum.
Dəhr bəzmində dedim bir-iki gün
İstirahət ilə bir cam dutum.
Sərnigun ola görüm cərxi-fələk,
Bir zaman qoymadı aram dutum.
Qoy bəni ray ilə ey kəc gərdun,
Ta ki, bir yaxşı sərəncam dutum.
Vaizin vəzi bana sərf etməz.
Bən necə şiveyi-ehkam dutum.
Eyni-taət genə büt səcdəsidir,
Adəti-taəti-əsnam dutum.
Ol büti-kafiri-tərsanı görüb,
Nə rəvişlə rəhi-islam dutum.
Daməni-əqli buraxub əldən
Özümü məsxəreyi-am dutum.
Bimi-əğyardən olmuş vacib,
Naleyi-şivəni axşam dutum.
Naciya, çün belə getsə ovqat,
Yegdir indən belə bəd nam dutum.

* * *

Könül mürği səri-zülfündən özgə bir məkan dutmaz,
Bu sirri xəlqdən kim eşq asarı nihan dutmaz.
Nigəhbanlar kimi xali-siyəhlər dutdu damanım,
Degil adət, ğulami-xanezadi pasiban dutmaz.
Tüyurin beççəsi öz asiyanində bulur rahət,
Anınçün mürği-dil zülfündən özgə aşiyan dutmaz.
Könül şəhbazi meyli-kəbkü dürracü təzərv eylər,
Əzizim, meyl edüb hərgiz o mürği-makiyan dutmaz.
Verən can nəqdini bazari-eşqi-dilrübalərdə
Əyandır hiç tacir beylə sevdadə ziyan dutmaz.
Olub viranə dil mülki çıq andan, yaq büsat, ey dil
Xərab olmuş məkanda hiç aqil məkan dutmaz.
Qulamın olmasa mövlasına ixlası kamiltər,
Bu rövşəndir anı mövlası bir dəm kamran dutmaz.
Əgər tökdünsə qanım qəhr ilə, bir cürə nuş eylə
Ki, derlər beylə olsa qanlını, əlbəttə, qan dutmaz.
Bana derlər ki, tərki-eşqi-yar et, özgə yarı dut,
Şikari-roubəhi haşa gedüb şiri-jəyan dutmaz.
Deyir xəlqə həmişə zahidi-zahirpərəst iman
Özü fail olan feli, əzizim, rahban dutmaz.
Təriqi-eşqdən, Naci, ayağın kəsmə ğəflətdən,
Xilafi-rahi-eşqi bigüman hər nüktədan dutmaz.

* * *

Dela, hər bir cəfa kim yardəndir eyni-rahətdir,
Gədayə hər nə gəlsə şahdən, eyni-inayətdir.
Cigər qanı gözümdən gəldügi çün dəmbədəm artar,
Əgər olseydi viran qurtarurdı bu nə hikmətdir.
Hədisi-Qeys ü Fərhadü Züleyxa, Vamiqü Əzra
Bənim hali-pərişanim yanunda bir hekayətdir.
Qoyanda yaxşı saxla dedilər təndə dilü cani
Ki, səndə nəqdi canın bir pərinindir, əmanətdir.
Soruşdum, ey büti-şirin, ləbi-şəkkər dəhan, aya
Bu istiğnalu olmaq xubrulərdə nə adətdir?
Dedi: "Aşiq olan lazımdı tab etsün ğəmi-yarə
Ki, məşuq aşiqə hər nə rəva görsə himayətdir".
Dedim: "Dilbər, müəmmayi-dəhanın aşikar eylə".
Dedi: "İma əgər əbrudən etsən çox kifayətdir".
Dedim: "Məqsudin ər can isə minnətdür dilü canə".
Dedi: "Məhvəşlərin sevdası əvvəldən xəsarətdir".
Dedim: "Pərvanətək, cana, sərasər cismimi narə
Əgər yaxsan bəni-dilxəstəyə lütfü himayətdir.
Züleyxa başinə gör kim nə işlər gəldi Yusifdən,
Əgər peyğəmbəri-həqq isə həqqa bidəyanətdir.
Ğərəz kim məqsədi-məqsudə yetmək istəsən, Naci,
Fəna sərmənzilin istə ki, ol möhkəm imarətdir.

* * *

Müjəm dərgahinin gərdü ğübarin röftüru eylər.
Gözüm yaşı ruxani-səhnini həm şöstüşu eylər.
Çəkər həmvarə aşiqlər cəfalər xubrulərdən,
Bana hər zülm olursa dəhrdə bir xubru eylər.
Sitəmgər zalım eylər ğeybdən ahəstə-ahəstə,
Bunun yox baki hərgiz, hər nə etsə rubəru eylər.
Cəfa tiğin çəkər zalım bənim qətlim içün hər dəm,
Urar zəxm üzrə zəxmi bəs sanasan ki, ədu eylər.
Ola bir hakimi-adil, sora aşiqlər əhvalın,
Dutam zülfin giribanın, deyəm neylərsə bu eylər.
Beğayət gizlərəm sirrim dəruni-dildə pünhani,
Girər zalım genə hər dəm onu də costü cu eylər.
Urub sındırsa zahid mey səbusin səngi-gəhr ilə
Onun da xaki-napakin zəmanə tez səbu eylər.
Düşüb əfsaneyi-dərdim misali-Qeys xəlq içrə,
Deyər, söylər cəmaət hər biri bir göftgu eylər.
Gözüm yaşından olmuş hövzlər səhni-sərayındə
Misali-xaneyi-Kəbə gələn hacı vüzu eylər.
Səni aldatmasun, Naci, bu dünyanın zərq, malı,
Qəza çox kimsənin kasi-bülurin bir kudu eylər.

* * *

Sual eylədi bir kəs fələkdən, ey qəddar!
Nədir səbəb bu qədər xəlqə vermisən azar?
Həmişə cövrü cəfadən fərağət olmazsan,
Dutubdu qəlbi-xəlaiq təmam gərdü ğübar,
Neçün duşubdi biyabanə Qeysi-biçarə
Özüni daği-cünunə nədən edübdi düçar?
Kuhkən nədən ötəri bəlayə verdi tənin
Ki, dağ çapmağı etdi özünə virdü şuar.
Nə etmişdi Züleyxa ki, gördü röyyadə
Müdam atəşi-eşq içrə cismi-zarı yanar.
Nə ixtilafidi salmısan bu xalq içrə,
Şürukdə qaruşub bir-birinə yəmnü yəsar?
Məzahib əhlinə bax, hər biri dutub bir yol,
Gedir təəssüb ilə cümləsi qətar-qətar.
Əlində hər birinin bir dəlili-möhkəm var
Budur səbəb hərə bir məzhəbə olubdu şikar.
Nə həddi var, nə hesabı bu dari-dünyadə,
Bular kimi olan avarə səd hezar hezar.
Açılsa sirr könüllərdən, iş olur məğşuş,
Degil səlah açılmaq, bepuş ya səttar.
Fələk bana dedi axırda, ey gözüm, gözün aç,
Nəzarə qıl belə bir bax bu günbədi-dəvvar.
Şüur eylə gedüb ol yəsayə bir düz bax,
Sudur daşı mühərrik qılan, daşda nə var.
Məgər mənəm bu busatı dolandıran eşşək,

Dolandırır buları həm məni bir ol cəbbar.
Əlim təhidi, sana layiq heç zadım yoxdur,
Bağışla Nacini öz lütfün ilə ya ğəffar.

* * *

Qamətintək sərvlər gülşənara bala degil,
Arizintək qırmızı, billah, güli-həmra degil.
Bir göz axtardım cahanda qəlbimə təskin verə
Gözlərintək gülşən içrə nərgizi-şəhla degil.
Ləblərintək bərgi-gül olmaz lətafət mədəni,
Dişlərintək saf hərgiz lölöi-lala degil.
Gülşəni-dəhr içrə çox gördüm güli-rəna, vəli
Billah, onlar öz gülümtək bir güli-rəna degil.
Şəkkərü Şirinü Leylavü Züleyxa doğrudur.
Nazəninim tək olar hərgiz mələksima degil.
Bülbüli-şeydanı çox gördüm çəməndə nəğmə xan,
Leyk anlar heç biri bir mən kimi şeyda degil.
Cami-eşqi nuş edüb bir-bir hərifan getdilər,
Cümlə sərməst oldu, likən mən kimi rüsva degil.
Olmasın məğruri-hüsn, ey şuxlər, bu bağara,
Siz kimi parinə güllərdən biri peyda degil.
Ruzigarə çox gəlübdür şairi-əfsanə qu.
Mən kimi hərgiz olar bixovfi bipərva degil.
Düşdü sevda başinə Fərhadü Məcnunun, vəli
Ancaq onlar mən kimi bir xərməni-sevda degil.
Əndəlib eylər fəğan hərçənd gül qarşusuda,
Naci tək nitqi anın şirinü həm quya degil.
Gərçi bu gülzar içində igli güllər çoxdu çox
Öz gülümtək güllər içrə heç biri buya degil.
Yendürürlər dağdan heyvani bir huha ilən,
Ürküdür eşqin məni cana bu bir hu-ha degil.

* * *

Qaşın tağını nəqqaşi-əzəl bəs xubtər çəkmiş,
Verən bu zibü rəngi zülfünə həmvarə tər çəkmiş.
Qədi-balanı sərvə oxşadım, ya kim deyim ərər,
Qəzayi-ruh üçün püstanların anda səmər çəkmiş.
Edüb tərtib səf-səf dişlərin dürci dəhanində
Bu sane sənətin gör kim, dəhən içrə göhər çəkmiş.
Rüxün mahi-münəvərdir və ya gülbərgi-tər çəkmiş.
Çəküb hər kimsənin bəxtin əzəldən katibi-qüdrət,
Məni-biçarəni əvvəl günündə dərd əzər çəkmiş.
Verüb hər bir kəsə öz xahişincə ruziyi-məlum,
Birinə zəhri-qatil, ol birinə gülşəkər çəkmiş.
Yezidin rifətin əfzun edüb təxti-hökumətdə
Hüseyn övladını sən gör necə dağı-cigər çəkmiş.
Çəküb lövhi-həyat üzrə Əlinin surəti-pakin,
Müqabildə həman lövh üzrə bir surət-Ömər çəkmiş.
Alub ağuşinə Leylanı cantək ol Səlam oğlu,
Qılub üryan tənin biçarə Qeysi dərbədər çəkmiş.
Verüb Fərhad əlinə tişeyi səngi-cəfakari
Ki, keçsün bu əzab ilə günü şamü səhər çəkmiş.
Birisin xəlq edübdür ki, əlin öpsün qamu aləm,
Birin xəlq eyləmiş daim ayaqlardan öpər çəkmiş.
Tüyurat içrə xəlq etmiş təzərv ü kəbk bəs aciz.
Verüb şəhbaz çəngalına qüvvət balü pər çəkmiş.
Gözün aç, Naciya, seyr ilə aləm nəqşinə bir-bir,
Degil övzai-batil bu əsası pür hünər çəkmiş.

* * *

Dəng edüb başımızı zagü zəğən həm həməsi,
Necə məslub qulağına rəsən həm həməsi.
Gəlü hər yerdə giriftar olan var dərdə,
Növbənöv rəngbərəng dərdə düşən həm həməsi.
Vaiza, bir di görüm səcdəvü minbərdə nə var,
Dəng edüb başını əz bəski dəhən həm həməsi.
Gəl xərabatə, müvəhhidlərə bax, eylə nəzər
Var anın yaxşısı ruh fəza həsən həm həməsi.
Bu çəmən bülbülü daim oxuyur nəğmeyi-hu,
Qilü qaldır başına özgə çəmən həm həməsi.
Göz açub eylə təmaşa bu çəmən güllərinə,
Səni valeh eləsün buyi-səmən həm həməsi.
Vermə təqlidə özün, gərdəninə salma kəmənd,
Ömrünü zaye edər ol qədəğən həm həməsi.
Təbini eylə ğəni kənzi-təvəkküllər ilə,
Görmə heç dəğdəğə anı to vo mən həm həməsi.
Xəlqdən çək özünü canibi-kuhü dəmənə,
Fariğ ol görmə dəxi kuhü dəmən həm həməsi.
Qamətindən yerə tök əlbiseyi-faxiri sən,
Ur olub çəkmə dəxi qeydi-kəfən həm həməsi.
Çoxları gümrəh edüb badnusi çay-çaydan,
Çoxların əqlin alub bari-fətən həm həməsi.
Çoxlar aludədi bu qəhveyi-təlxi-Yəmənə,
Aparub əqlin anun mali-Yəmən həm həməsi.
Naciya! Saldı ayaqdan səni govğayi-vətən,
Çıx sən andan dəxi, heç çəkmə vətən həm həməsi.

# Müxəmməs və müsəddəslər



ندیده چشم فلک همچو صاحب شوکت — نزاده مادر ایام آن چنین پسری
هر آنکه زیر جناح ترحمش آید — بخواطرش ز حوادث نمیرسد کدری
اگر بلطف ترحم نکند بکسی — ز نار صرصر دوران نه بیندش شرری
بظل سایه عدلش چو در اگر کله — ز گرگ حادثه هرگز نمیکشد خطری
اگر کسی بکشد که ان از اطاعت او — ز نخل بار ورش هیچ نمیخورد ثمری
چو رحلت ابدی کرد آن خجسته صفات — قرار گشت بجایش جوان پر هنری
محمد است بنام آن بدی و شجاع و دلیر — با نتهای کمالش نمیرسد بشری
همیشه بر هدف مدعا زند تیرش — ز تیغ تیز دلیش خون دشمنان هدری
ز بوم بوم برآید ز شاهباز باز — چنین پسر پدر برآید ز صلب آن پدری
اگر بچشم بصارت بصارتش بینی — پس آشکار شود از نجابتش اثری
ثلاثه پسری بخشش که بروی حق — بروی شان نفتد هیچ چشم بد نظری
حمید مهر علی بزرگ الله یار — دعای زنده دلان هر سحر بود سپری

## Müxəmməs və müsəddəslər

* * *

Ey səba, gər söyləsən canana bəndən bir xəbər,
Ərz qıl əvvəl bəni-biçarədən kəsmə nəzər.
Qeystək Məcnun olub avarə düşdüm dərbədər,
Gözlərim görməz yuxu, həm ağlaram şamü səhər,
Mübtəlayi-eşqin oldum, canıma düşmüş şərər.

Dil əsiri-çeşmin oldu hali ol halım həmin,
Çeşmi-xunbarim dəmadəm qan tökər xatir ğəmin.
Yox bana bu gündə bir munis ki olsun həmnişin,
Bəndən artux yox giriftarın sənin, ey nazənin!
Dəftəri-sinəmdə yazmış mehrini kilki-qədər.

Ey səri-qullabi-zulfin gərdəni-cana kəmənd,
Qalmışam heyranü aciz həm əlilü müstəmənd.
Hali-zarimdən xəbərdar olmadın, ey dərdmənd,
Kim ki, eşqin xərmənindən olmayubdur bəhrəmənd
Ta qiyamət görməz ol nəxli-həyatından səmər.

Bən xəyali-eşqin içrə nəfs ilə etdim cədəl,
Bəs ki, müşkil gördüm eşqi, arzu qıldum əcəl,
Səbrimi aldın əlimdən, saldın imana xələl,
Eylə bir ziba gözəlsən aləm içrə bibədəl,
Pərtovi-hüsnin ziyasından xəcil şəmsü qəmər.

Biqərarəm çərxtək, olmaz bana səbrü şəkib,
Mürği-ruhim qalibindən çıxmaq istər ənqərib,
Çok təmənna eylərəm olmaz bana vəslin nəsib,
Görsəm ol mahi-münəvvərtək cəmalın, ey həbib,
Xatirim ayinəsindən pak olur jəngi-kədər.

Atəşi-hicrində yandım bəs ki, zarü natəvan,
Bən nə növilən qılım hali-dilim şərhü bəyan?!
Padişahi-hüsnsən, tabe sana külli-cəhan,
Nadiri-dövransan, ey dilbər həmi muyin miyan,
Görməmiş çeşmi-fələk aləmdə səntək bir bəşər.

Ağlamaqdır adətim, bir dəm könül qılmaz fütuh,
Seyli-əşkim aşdı başimdən bənim manəndi-Nuh.
Tiri-müjganından, ey can, sinəm üzrə bin cüruh.
Badeyi-şövqin məzaqi-canda rahətbəxşi-ruh,
Rahi-eşqin bir nəhayətsiz mühiti-pür xətər.

Muttəsil payi-cünunim qeydidir muyi-sərin
Kəhli-didəmdir, əzizim, daima xaki-dərin
Can fədası olsa layiqdir sənintək dilbərin.
Əndəlibi-ruhim istər şaxsari-gülşənin
Tutiyi-nitqim dilər dürci-dəhanından şəkər.

Bazi-eşqin bu təzərvi-ruhimi qıldı şikar,
Daneyi-xali-ləbin gördü, dil oldu biqərar,
Əşki-həsrət xaneyi-səbrim qılıbdur tarümar

Gər vəfatimdən yüz il keçsə olur həm aşikar.
Üstüxani kəlləm içrə buyi-eşqindən əsər.

Məhbəsi-ğəmdə giriftar olmuşam, ver bir nicat,
Bərgi-gültək ləblərindən istərəm abi-həyat.
Mustəhəqqəm, ver bana ol nəqdi hüsnündən zəkat
Nacini məqdur dutma, eylə gahi iltifat,
Aşiqi-sadiqdir ol, sanma oni namötəbər.

* * *

Söylərəm şur ilə yaran sizə bir turfə xəbər:
Laləzar olmuş idi dəşt ilə həm kuhi-kəmər.
Mövsümi-bağ idi, bir gün elədik əzmi-səfər,
Ta gedək bağə, edək ruhimizi tazəvü tər.
Getdik ol rişi-büzürgin yanına neçə nəfər.

Biri ol türfə cəvan Rüstəm, yəni bəzzaz,
Kim qəfasında anın cümliyə vacibdi nəmaz.
Biri Məhməd Əli bəg, birisi ol Kəlb Niyaz.
Biri ol Ağakişi, qəddi anın xeyli diraz.
Seyr üçün cəm elədi başinə Kəlbiyi Cəfər.

Neçə əşxas olub bizlərə həmrah bugün,
Oldular dam ilə təzvirdən agah bu gün.
Göstərüb şirə əcəb məkrini rovbah bu gün
Beş nəfər oldu birə düşməni bədxah bugün.
Necə ki şir xuda ilə Əbubəkrü Ömər.

Hərədən abbası əvvəl yekə saqqal aldı,
Deyəsən ölü yuyub muzdunu ğəssal aldı,
Bir dənə yağlı qoyun ol bizə filhal aldı,
Yarısın oğurluyub boynuna vəbal aldı
Belinə vursun anın saqiyi-huri kövsər.

Müxtəsər, bağə tərəf çəkdi bizi, oldu rəvan,
Dalısınca yeridi bir neçə əşxasi-filan.

Əldə təsbih, onun söylədigi cümlə yalan,
Əcəb əfsunçu idi, yaxşı dutar gürzə ilan,
Gəlmiyüb aləmə anın kimi bir əfsungər.

Bağə getdük qoyunun başını kəsdik o zaman,
Əziz oğluna dedik bir oxu ey ruhi-rəvan.
Rəsmdir bir belə mövsümdə olur pir ü cəvan.
Nəğmeyi-ruhfəzadən aparur ləzzəti can,
Nə bilür musiqinin ləzzətini bir neçə xər.

Sirri Leylini soruş Qeys dodağından sən,
Bülbülün şurini ol qönçə budağından sən,
Cuybarın sifətin soruş ayağından sən,
Şəkkərin dadını sor tuti məzaqından sən,
Pox dadar eşşəgin ağzında, yəqin bil, şəkkər.

Qalmışam acizü heyran fələgin gərdişinə,
Bir para adamlarin həmd oxumaq vərdişinə,
Saqqalı bənzər anın Zurnabadın keşişinə
Götürüb qaçdı əti, mən ... anın rişinə
Necə qəssabxanadan it götürüb əti gedər.

Bir bax ol Kəlbi-Niyazə necə eşşəkdir bu,
Kənd içində böyüyüb dır-dıra pəsəkdir bu.
Annamazlıqda tayı yoxdu, bəli təkdir bu,
Yaxşı saxlar sürüni, qıllıdır, köpəkdir bu.
Qələt işdir deyəsən bir belə heyvanə bəşər.

Uzun Abdullahı gör lənət anın surətinə,
İşinə həm rişinə, qəddinə, həm qamətinə,
Səhl işi tərk eliyüb yaxşı düşübdür çətinə
. . . . . . . . . . . . . . . . . . . . . . . . . . .
. . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Buların yoldaşının birisi Məhməd Əli bəg,
Özü bir zağar tula, yoldaşı bir zorba köpək,
Belə bəyzadə nəcib yoxdu cəhanda özitək
Gözü gög, saqqalı sarı, boyu bəstə çəkərək.
Düşsə fürsət əlinə xəlqi edər zirü zəbər.

Xəstə Talıb neləsin bağrı olub qan anın,
Cigəri oldu necə atəşə büryan anın,
Çünki yoldaşı olub bir neçə heyvan anın,
Aldı canın necə gör kakili reyhan anın
Ki, dəmağından anın getmiyəcək ta məhşər.

* * *

Dün düşdü yadimə ləbi-ləlin hekayəti,
Dürci-dəhəndə sadir olan möcüzi-ayəti,
Dərdi-nihanım oldu cəmalın kitabəti
Getməz dimağdan bu sürurun həlavəti,
Dil mürği ta zülfünə dutmuş iqaməti,
Aram dutdu anda, könül buldu rahəti.

Şükri xuda ki keçdi xəzan, gəldi novbahar,
Səhni-çəməndə rövnəqi-gül oldu aşikar,
Göz açdı, yuxudan oyanub nərgisi-xumar,
İç badeyi-məhəbbəti, ey əqli-huşiyar,
Eşqin rəviyyəsin nə bilür vaizi-himar
Bəndən sual eyliyə gör ol rəvayəti.

Ey büt! Əsiri-türreyi-tərrarın olmuşam,
Heyran sənin o tutiyi-göftarın olmuşam,
Murği-müqəyyədəm ki, giriftarın olmuşam,
Bimarü xəsteyi-ləli-şəkkərbarın olmuşam,
Pərvanə var maili-ruxsarın olmuşam,
Yaxdı bu canı şöleyi-hüsnün hərarəti.

Odlarə düşdü xəstə tənim dutub şərər,
Yüz ahü nalə gər eyləsəm, yoxdu bir səmər,
Bir çarəsaz kimsə bulunmaz bana məgər,
Piri-muğana söylədim, ey piri-pür-hünər!

Bimari-eşqə hiç qılurmi dua əsər?
Yoxdur dedi bu bəhri-əmiqin nəhayəti.

Bağrım dəlindi, döndü cigər qanə, ey təbib!
Rəhm eylə bir müalicə qıl canə, ey təbib!
Bundan ziyadə dözmənəm hicranə, ey təbib!
Dil mülki oldu zülm ilə viranə, ey təbib!
Hicrin bəni salur ğəmi-suzanə, ey təbib!
Vəslin könül mərizinə səhhət əlaməti.

Yox ehtiyaci qamətin zib ü zivərə,
Vermiş şikəst mehri-rüxin mahi-ənvərə,
Zülfindən öpməyə nə rəva mişkü ənbərə,
Can versəm azmudır beylə bir şux dilbərə,
Bu qamət ilə gər gələsən ruzi-məhşərə
Mənsux edər bu qamətü qəddin qiyaməti.

Bən müflisü fəqirəmü halım sana əyan,
Dil versə nəqdi-hüsnünə qılmaz könül ziyan.
Eyni-yəqindir bana, billah, degil güman,
Vacib bilən itaətini həm bulur əman,
Əbruyi-tağına qılum səcdə hər zəman,
Daim dilimdə müshəfi-hüsnün qiraəti.

Ta var həyat çəkmənəm əl gülüzardən,
Vəqti-bəhar mövsimi-gülü laləzardən,
Çəngü çəğanəvü mütribü meyü sazü tardən,

Sərf eylə, ey könül, keçə gör hər nə vardən,
Zahid xəyalı xali edüb eşqi-yardən,
Üqbadə fəhm edər bilürəm bu xəsarəti.

Noldu cahanda padşahi-Keyqubadü Key,
Nuşirəvani-adilü fərxəndə nam vey.
Hatəm ki, qıldı rişteyi-ömrin zəmanə tey,
Eylər rücu əslinə aləmdə hər nə şey,
Gər fariğ olmaq istərsən, ey dil, benuş mey!
Çun badiyeyi-fənadı cəhanun fərağəti.

Ey dil ki eşq badəsini şarib olmusan,
Məcnun məsnədində bu gün naib olmusan,
Şövqi-cəmali-yarə məgər cazib olmusan,
Ğəm ləşkərinə munca nə xoş ğalib olmusan
Naci, mətai-hüsnə ki, talib olmusan,
Ver nəqdi-cani, eyliyə gör bu ticarəti.

* * *

Hənqami-şam, guşeyi-xəlvət, şəbi-bəhar,
Dün rövşən etdi çeşmimi, yaran, rüxi-nigar,
Gördü bəni çü zarü həzinü xəstə, dilfikar,
Məstanə saldı boynuma zülfün misali-mar,
Sordum məgər bu mari-siyahdır – dedim. Dedi:
– Çox-çox danışma, qatili-canındurur sənin.

Ləlin şərabini kim içərsə, bulur səfa,
Bir cürə bən mərizə nolur eyləsən əta,
Səntək cəhanda görməmişəm hiç bivəfa.
Yetməzmi munca eylədin cövrü cəfa?
Bir çarə eylə, hicrinə dözməm – dedim. Dedi:
– Ölmək əlaci-dərdi-nihanındurur sənin.

Bir işvə ilə könlümə verdin əcəb firib,
Tən eylər oldu halimə həm dust, həm rəqib,
Bəzmi-vüsalın istərəm, olmaz bana nəsib,
Ni səbr, ni qərar, ni aram, ni şəkib,
– Hasil nədir sana bu cəfadan – dedim. Dedi:
– Xoşhal edən bəni bu fəğanındurur sənin.

Həmta degil nigarimə yüz dilbəri-firəng,
Əbrusi çün hilal idi, müjgani çün xədəng.
Xəlq etməmiş xuda beylə bir qaməti-qəşəng,
Etmişdi nazik əllərini ərğəvani rəng,

– Əldə hənadır, yoxsa nə şeydir – dedim. Dedi:
– Qəsmzəm qılıncı tökdügü qanundurur sənin.

Hicrindən oldu xəstə tənim zarü binəva,
Vəslindən ayru olmağa olmaz könül reza.
Gördün neçün bu zülmü bana, ey cani-mən, rəva?
Səndən yetişdi çünki bana dərdi-bidəva.
– Aya olurmu çarə bu dərdə – dedim. Dedi:
– Mühlikdir, Naciya! Bu, qəranındurur sənin.



# Müxtəlif şeirlər

## Taxıl qıtlığı və şəhər əhalisinin pis halı

Bir kimsə ki, qocalmağa yüz qoydu,
Yüz dəfə yaxşıdır eyləsə vəfat.
Bir həyat ki, heç olmiyə ləzzəti,
Yegdir andan isə, vallahi, məmat.

Cavanlıq vəqtindən ta bu vəqtədək
Görmədik bir əməl eyləsün kömək,
Nə işmək ləzzəti vardır, nə yemək,
Dur yola düş, bəsdir, ey nik sifat.

Qalmıyacaq sana rəngin otağın,
Nər nə ki yığubsan-çürügün, sağın,
Yığılacaq tamam oğul, uşağın,
Deyəcəklər apar muni tamam sat.

Mırhamır düşəcək aralarına,
Mərhəm qoyan olmaz yaralarına,
Hər gələn göz tikər paralarına,
Guya ki, olacaq ruzi-ərəsat.

Yığışdırma bu dünyanın malını,
Görmürsənmi anın qilü qalını?
Bir fikr elə, gözüm, anın dalını,
Özünə yetişməz andan bir xeyrat.

Adam var ki, bircə kümə yapanmaz,
Adam var ki, bircə çörək tapanmaz,
Adam var ki, allahından utanmaz,
Gündə gəlür daxilinə min manat.

Bir adam var bu məxluqun içində,
Puldur anın içün məzhəb də, din də,
Ömr edüb bir müddət, tamam ömrində
Qazanmıyub özi içün həsənat.

Əhvali-maziyə baxub oxuram,
Gümüldənüb əl qoynuma soxuram,
Bu əyyamda qalmıyubdi baxıram
Keçən əyyam kimi xeyir-bərəkat.

Ey xudayi-aləm, əziz bari,
Nə arpa tapılır, nə də ki dari,
Bir bəla müsəllət eylədi tari,
Əkinçilər vermədilər heç zəkat.

Düşübdür qabağa hər çulu yırtıq,
Yığublar buğdanı anbara tığ-tığ,
Saman, arpa olub gümüşdən artıq
Arbaçılar, faytonçular qalub mat.

Yaman işdən tövbə edüb çəkilin,
Allah tərəfinə yıgılub gəlin,
Belə güni indi görün ta bilin,
Nə çəküblər görün o əhli-Herat.

Bir molla gələndə beşcə gün durmaz,
Bir müşkili olsa kimsə aşurmaz,
Pul vermək gələndə əl cibə girməz,
Quru-quru çəkərsiniz calavat.

Minnət qəbul eyləmənəm hər itdən,
Geyərəm əgnimə qədəkdən, çitdən,
Anunçun qaçaram mən bu meçitdən
Dəgməsün bunlardan bana sədəmat.

Salahdür bu vəqti oturmaq yalquz,
Görmərəm dəhrdə bir yari-dilsuz,
Çəkilmişəm bir guşəyə şəb ü ruz.
Bir mənəm, bir kitab, bir qələm, dəvat.

Fərhadam əlimdə künd olub tişə,
Xəyyamam əlimdə cınubdi şişə,
Gözləyirəm, intizaram həmişə,
Haçan gəlür can verməgə bir bərat.

Qubernator bir iş eyləmiş idi,
Həqiqətdə o bir yaxşı iş idi.

Yaxşılıq yamana bir təşviş idi,
Bərhəm vurdu anı bir para bədzat.

Salah olan işi pozan kimsənə,
Aralığa salan yaman kimsənə,
Yoldaşına quyu qazan kimsənə,
Atayın goruna ..... saldat.

Ağırlaşub camaatın yuxusu,
Pis gəlür burnuma dilin qoxusu,
Darı yeyir çöl xalqının çoxusu,
... bilməz ta olmasa müsmülat.

Qorxuram fələkə çıxa ahımız,
Nə pulumuz qala, nə tənxahımız.
Əmr eyliyə bəlkə şəhənşahımız,
Rusiyadan gələ bizə süyursat.

Xalqın əksərini görürəm avam,
Dillərində yalan, özləri nəmmam,
Qorxun o gündən ki, olalar tamam
Bu məkanlar cəzaizi-xalidat.

İşlərimiz çox düşübdür dərinə,
Təbdil olub dəhrin xeyri şərinə.
Su sudur verməzlər biri-birinə
Olubdur hamısı vəkili-Fərat.

Bahar olcaq məskən salma bağlara,
Qış günündə ləzzətlü otaqlara,
Götür başın, Naci, çəkil dağlara,
Tap özünə bir guşeyi-sumnat.

* * *

Aslan ağa! Yaxın durma cavana![1]
Cavan da özütək bir cavan istər.
Alişandır cavan ki, var hər yerdə,
Alişan olan kəs alişan istər.

Nə yaraşur bizim kimi qocuya,
Gözün tikə sübhə kimi bacıya.
Bəlkə çörək bişə, xəmir acıya,
Tez-tez əhlin qarnın açar, nan istər.

Keçmə bu sözümdən, əzizim mənim,
Məsləhətdir, eşit, imanım,dinim,
Eşitməzsən, yəqinimdir, yəqinim
Fikirsiz iş tutan peşiman istər...

[1] Aslan ağa Morul qoca vaxtında istədi cavan arvad alsın, ona yazdım

* * *

Ərzimə guş qıl, ey zairi-beytür-rəhman[1],
Getdigin beyti-şərifə ola canım qurban.
Ərzimiz olmadı məqbul, nədəndir səbəbi?
Yerə düşdü sözümüz, güldi bizə xəlqi-cəhan.
Saxladım hörmətini Kəbeyi-beytüllahin.
Yazmadım qulluğuna bir neçə həcvü hədyan.
Bu ki, mümkündi bizə həcvi qoyub mədh demək,
Nə rəvadır ki, deyək bir para yaxşı və yaman.
Gülşəni-eyşin ola badi-xəzandan məhfuz,
Hifz qılsun səni ol qadiri heyyi sübhan.
Yetməsün malına bir zərreyi-noqsan və zərər,
Dəgməsün canına bu hadiseyi-dəhrü zəman.
Əgər huvəzzeyf buyurmuşmu bizə peyğəmbər
Bu xəbər doğrumudur söylə görüm yoxsa yalan.
Tapulur hər yerə getsək, bizə bir çəngə çilov,
Gər çilov olmasa, əlbəttə, olur nani-yəvan.
Ğərəzim oldu ki, bu cərgədən ayrılmayasan.

[1] *(Gecələr qonaqlığımız olurdu. Toplanırdıq, çay içib, plov yeyirdik. Vaxtımızı xoş keçirirdik. O vaxt ki, qonaqlıq növbəsi Hacı Heydərə çatdı, istədi qonaqlıq verməsin. Bu bəndəyə dedilər ki, onun haqqında həcv yazım ki, tənbih olunsun. Mən həcv əvəzində bu nəzmi yazdım. Haman gecə gözəl tədarük gördü və qonaqlıq verdi.)*

Sürüdən bir qoyun ayrulsa, olur sərgərdan.
Nə verür sahibinə nəf, nə bir özgəsinə
Dutar axırda anı tömə edər gürgi-jəyan.
Olma ikrah, əzizim, bu ziyafətdən sən,
Bərəkət nazil olur hər yerə getsə mehman.
Yığdığı dövləti heç kim yemədi aləmdə,
Vermədi mətləbini gərdişi-çərxi-dövran.
Hər kimin zati-şərifində ola cudü səxa,
Verur allah ona nemətini bi payan.
Necə kim Hatəmə vermişdi xudavəndi-cəlil
Vəsfü tərifi anın xəlqə olub bəs ki əyan.
Adın ol Heydəri-Kərrarə baxub fikr eylə,
Sailə verdi qatar ilə o şahi-mərdan.
Kərəmü cudü səxavət özü bir nemətdir,
Hər dənitəb nə layiq ola sahib ehsan.
Getdi Qarun dərək əsəfilə bu xissətdən
Ki, müxəllətdi cəhənnəmdə ilaəhdi-zəman.
Bu məsəldir nə əkərsənsə biçərsən axır,
Hər kəsə öz əməlindən yetişür nəfyü ziyan.
Dari-dünyadə ğərəz söhbəti həmsöhbətdir,
Getdilər nami-niku ilə cəhandan xuban.
Hanı Keyxosrovü Keykavus, Cəmşid ilə Cəm,
Yeddi iqlimdən alan bac o şahü xaqan.
Qeysəri-Rum ilə Daravü Qubadi-zərtac!
Hanı İsgəndəri-Zülqərn, hanı Nuşirəvan?
Rüstəmi-Zal ilə Bərzuyi-Cəhanbəxşi-dəlir?

Ol Fəramərzi-dilavər ilə Sam, Nərman?
Müxtəsər, şahü gəda getdi cahandan yeksər,
Qalmadı hiç birindən anın asarü nişan.
Olma bülbül kimi məğrur gülüstanə, gözüm,
Bu baharın əqəbincə gələcək fəsli-xəzan.
Qaçasan gər bu ziyafətdən, əzizim Hacı,
Gülər əhvalına, vallahi, sənin pirü cəvan.
Verəsən, vermiyəsən, sən bilüsən, mən nə deyim.
Nacinin borcu idi ta elədi şərhü bəyan.

## Növhə

Ey xiridari-dürri-bəzmi-buka,
Ey ğəvvasani-qəri-in dərya.
De gözə ağlasun, gəlüb vəqti,
Matəmi-nuri-dideyi-Zəhra.
Yox əlində bir özgə dəstaviz
Qəlbinə vergilən bu növ səfa.
Mərəzi-məsiyyət əlacı budur,
Yazmıyublar sana bir özgə dəva.
Şoştüşu ver bu abilə bədənə,
Şəms edər Zöhrəni həmin əcza.
Bir hekayət eşit qılım təqrir.
Bulfütuh eyləyub buni ilqa.
Gəlmədi şükr o Ninəva çölunə
Çün quruldu quruldu Kərbubəlu.
Vəhy movtu yetişdi ol dəmdə
Şühəda səminə bu növ səda
Canüdildən olubdurlar xoşhal,
Ta eşitdi olar bu növ nida.
İçdilər şərbəti-şəhadətdən,
Anlara mənzil oldu qürbi-xuda.
Rəhrəvani-təriqi-kuyi-həbib,
Gətüməzlər xəyalə seyfü şita.
Canı cananə kim ki, bəzl etdi,
Ona derlər cəhanda əhli-səxa.
Cümləsi oldu məsti-cami-əbəd,
Bixəbər ol yadigari-ali-əba.

Çünki bimar idi ol mərkəzi-həqq,
Zilli-allahdə dutub məva.
Qətldən ta ki oldular fariğ,
Yüz qoyub ximəgahə bipərva.
Saldılar at, çəkdilər şəmşir,
Əhli-beyt içrə düşdü bir ğovğa.
Ta ki başlardan aldılar məcər
Şəmstək oldular cəhan ara.
İztirab ilə ximədən bir qız,
Çıxuban söylədi ki, vaveyla.
Əmməsi Zeynəbin dutub ətəgin
Der idi hanı atam, əmma?
Ta bizi qurtara bəlalardən
Yetməyə bizlərə bu qədr cəfa.
Ol zəmanda yetişdi Şümri-ləin,
Əldə fərqi o seyyidi-şühəda.
Dedi: "Ey qız budur atan, gəl, al,
Kor olsun gözüm, əya mövla."
Sənə bu zülmü kim rəva gördü,
Ey güli busitan, o, ədna.
Öpər ikən o həsrətin yüzünü,
Gördü ol Şümri-dunü bipərva.
Gəldi qeyzə o rusiyah dügün
Mürği-ruhun bədəndən etdi cüda.
Kaş oleydi o əsrdə Naci,
Ta yolunda özin edeydi fəda.

* * *

Ey Mahmud ağa! Ənisi-dirin[1],
Əxlaqı gözəl, kəlamı şirin.
Ey bülbüli-gülşəni-fəxarət,
Ey meyveyi-nəxleyi-nəcabət,
Gər halımı sorsan, ey əzizim,
Künd eylədi dəhr tiği-tizim.
Beş həftədi bəstər içrə zarəm,
Gərdun ələmilə biqərarəm.
Rahət bədənimdə yoxdu hərgiz,
Salmış bəni dərdə dəhri-xunriz.
Bu pirligə yox idi tabım,
Arturdu dəxi fələk əzabım.
Yatmaqdı gecə-günüz mədarım,
Oturmağa yoxdur ixtiyarım,
Çün pis yerimə çıxıbdu yarə,
Göz görməz edim mən ona carə.
Çox ah ilə nalə qılmışam mən,
Allaha həvalə qılmışam mən.
Lakin bu arada könlüm istər
Ağ balıq ətindən ötrü titrər.
Gər yesəm onu yəqin dirilləm,
Könlüm açılıb, bir az gülləm.
Öz adətinizlə olsa püxtə,
Xoşhal olu bu həqir o vəqtə.

---

[1] Xəstə vaxtı ürəyim balıq istədi, yazdım

Məndən sizi eyləmək xəbərdar.
Bismillah, əgər şəfəqqətin var.

* * *

Ey dilbər ü mehribanü ğəmxar[1],
Ey yari-müvafiqü vəfadar.
Fikr etmə ki, səndən olmuşam dur,
Məzur dut, ey nigar, məzur.
Gər hali-dilim təfəhhüs etsən,
Lütf ilə bəni təcəssüs etsən,
Könlüm ki, fəraqə mübtəladır,
Ol gün ki səninlə aşinadır.
Didarını görsə çeşmi-xunbar,
Dil ğafil ikən olurdu huşyar.
Çeşmim yaşı oldu çeşmə-çeşmə.
Rəhm eylə bu xun fəşan çeşmə.
Rahət yuxusu gedüb gözümdən,
Vallahi, xəbərsizəm özümdən.
Hər şamü səhər fəğan ü nalə,
Əlbəttə, güvahdır bu halə.
Daim çəkirəm mən iştiyaqın,
Öldürdü bəni sənin fəraqın
Yoxdur bana bir ənis ü həmdəm,
Saldı bəni bəs əyaqdən qəm,

[1] Məşuqəyə göndərmək üçün yazılmış mənzumədir

Dövranın işi budur həmişə,
Kəcrövlüğü  eyləyubdi pişə.
Mənzurum odur ki, ey nigarım,
Ğəm mərhələsində ğəmgüşarım,
Məktub ilə eylə könlümü şad,
Ğəmdən bəni eylə ta ki azad.

* * *

Siz istərsiz Kəlimullah Firon kimi məst olsun[1]!
Nəqizi-əhdi-rəbbül-aləmin ruzi-ələst olsun.
Siz istərsiz olam mən tabei-şeytani-biiman,
Binayi-küfr möhkəm, xaneyi-iman şikəst olsun.
Rəvadurmi mələk surətlilər şeytanə yalvarsun,
Süleyman rütbəlilər div əlində zir-dəst olsun?
Rəvadır höccətullah tabe olsun gövmi-küffarə?
Deyirsiz bu Xəlilullah gəlsün bütpərəst olsun.
Mənim şənimdi baş vermək bu yolda mərdi-
mərdanə,
Dili-pakimdə napak oxlaruz ta pür neşəst olsun.
Bana məscid yolun göstərdi cəddim yəni islamı,
Siz istərsiz ibadətgahımız şimdi kenəşt olsun.
Yəzidin rifətin istərsiz olsun ərşi-əladə,
Dilərsiz dudmani-Heydəri-Kərrarı pəst olsun.
Əya Naci, əlin üzmə, o mövladan, yapış möhkəm,
Şəfiin ruzi-məhşərdə sənin çar ilə həşt olsun.

[1] Salyan rövzəxanı Molla Səfərin xahişi ilə yazılmışdır

* * *

Ey salan vəlvələ bər mülki-İrəvanə şlaq[1].
Mərdi-mərdanə girən gündə bu meydanə şlaq.
Ol təbibi ki, tapa bilməz idi bir şahi,
Guşeyi-çeşm ilə baxmaz dəxi Turanə şlaq.
Murdəşir taxtakeşü gurkənü zakiri-din
Nəzəri-mərhəmətindən dönüb aslanə şlaq.
Dad ilə yazmalıdur cümlə xəlaiq yığılub,
Bir ərizə sitəmindən şəhi-şahanə şlaq.
Qaçdılar hər tərəfə tərki-vətən eylədilər,
Getdi xalqın çoxusu hər biri bir yanə şlaq.
Sənətin aldın əlindən mələkül-mövtün sən,
Mələkül-mövtü gətürdün dəxi sən canə şlaq.
Nə xüsumətdi bu səndə, nə ədavətdür bu,
Nə salubsan bu odu məzrəi-əbdanə şlaq.
Qürəba əhli özin üstünə mərdanə salur,
Necə ki, şöleyi-şəm üstünə pərvanə şlaq.
Məst olub kefli olan kimsə o qızdırmadan
Nə rəvadur içə mey ya görə meyxanə şlaq.
Hər əzab eyləyəsən kafirə iman bulmaz,
Hirqəti-narını görsə gəlür imanə şlaq.
Xarici məzhəbə ur hər nə ki zərbin var isə,
Rəhm qıl, allaha bax, dəgmə müsəlmanə şlaq.
Gər müyəssər ola getmək sana əflakə tərəf,

---

[1] Hacı Molla Abbas İrəvandan şlaq haqqında doğru bir nəzm yazıb göndərmişdi. Ona cavab olaraq deyilmişdir

Cümlə gölərdə mələklər gəlur əfğanə şlaq.
Əzm qıl, keç Ərəsi, get tərəfi – İranə
Ol Təhəmtən kimi sal vəlvələ İranə şlaq.
Düşmənindir sənin ol qarqudalu, şəftalu,
Nəzəri-xəsm ilə bax bir o badımcanə şlaq.
Əlif, əlbəttə, sana tapşururam qoymiyəsən
Ki, bular basa qədəm canibi-bustanə şlaq.
Ey cəmü-əl mal təbib ilə olan sarı qovun!
Yeri öz adətin ilə yenə məstanə şlaq.
Ur qılıc tiğ çəküb kim ki qılıc urdu sana,
Rəsmdir düşməlidir qan eliyən qanə şlaq.
Yaraşur xələti-şahanə bu bostan əkənə
Ki, sənintək igidi bəslədi mərdanə şlaq.
Ey şlaq canı verən dilbərinə sud etdi,
Sən dəxi Naci kimi ver canı cananə şlaq.

## Yenə İrəvan şlaqı haqqında

Genə gəldi bazara meyvələrin şahı şlaq,
Ğürəba taifənin püşt ilə pənahi şlaq.
Yesə hər kimsə səni sir olunca qəətən,
Sən kimi rəngi saralub çəkəcək ahı şlaq.
Ol badumcan ilə şaftaluvü qarqudalı
Mərəzi-tibdə buların səri-həmrahı şlaq.
Cümlə əqsami-ətibbayə edən imdadi,
Qamu əsnafi-təbibin dili-ağahı şlaq.
Əmələ mövti edən şərvətilə cümlə ğəni.
Mollanın mərtəbeyi-dövlət ilə cahı şlaq.
O ki nubarı olur, zində olur bostançı,
Nəuzibillah ki ola ikisi bir şahı şlaq.
Yazılub dəftəri-əmvatə bu məzmun ilə
Füqəranın ölümü, bəlayi-nagahı şlaq
Ey şlaq, kəsmə məhəbbət nəzərin bizlərdən,
Guşeyi-çeşm ilə bax bir bizə gəh-gahı şlaq.
Mahvəşlər bədənin muy kimi incəldüb,
Dilrübalar yüzüni sən elədin kahı şlaq.
Kim ki birahlıq ilə başına bir tiğ çəkər,
Biəvəz qoyma gedə mənzilə birahı şlaq.
Hara vursan qılıcı vurgilən, ey sarı qovun,
Tap birin, dəgmə bizə, sevərsən allahı şlaq.
Mərəzi-şəhdinə eylə düçar əğyarı,
Salgilən xaki-məzəllətlərə bədxahı şlaq.
Naciyə qazma, şlaq, çünki düşərsən sən özün,
Rəsmdir çahə düşər kim ki, qazar çahı şlaq.

## Yenə İrəvan mığ-mığının vəsfi

Rəhm qıl canıma aman mığ-mığ!
Ey səsi zurnadan yaman mığ-mığ.
O qədər sordunuz hücum eləyub,
Qalmıyıbdır tənimdə qan mığ-mığ.
Hiç fəssad almıyub belə qan,
Ağladı canıma cahan mığ-mığ.
Nəğməxanlıqda hiç yox bədəlin,
Eyləyüb çoxlar imtahan mığ-mığ.
Birisi qu-qu deyir, birisi vav,
Xəlq edər daima fəğan mığ-mığ.
Mələkəlmövt bu əzabı ilə
Almıyubdur bu tövr can mığ-mığ.
Bədənim hamusun təmam yegilən,
Sövtünü eylə tək nihan mığ-mığ.
Özgə vəqti nə eyləsən eylə,
Bir çörək vəqti ver aman mığ-mığ.
Gün batan vəqti, ey müsəlmanlar,
Ləşkərin çəkdi nagəhan mığ-mığ.
Ləşkəri-ləgzitək olub hazır,
Hər gecə zurnanı çalan mığ-mığ.
Bir tərəf kik, bir tərəf mığ-mığ,
Qoymadı təndə üstüxan mığ-mığ.
Kimə dad eyləyüm, Xudavənda!
Aləmə şurişin salan mığ-mığ.

Nə görə bilmənəm necə dişlər,
Nə olur bir kərə əyan mığ-mığ.
Zahirən cismimə qəvi düşməz,
Batinən ömrümə ziyan mığ-mığ.
Gecə yüz gəz xudaya yalvaruram,
Key səri-cümleyi-şəhan mığ-mığ.
Bizə bir güclü yel əta eylə,
Dəf ola bəlkə biiman mığ-mığ.
Vay əgər bayıra çıxa bir kəs,
Gərək alsun ələ biyan mığ-mığ.
Bir kərə yanına, iki yüzünə
Gərək ursun o natəvan mığ-mığ.
Vay əgər olsa bir gecə bürkü,
Göy yüzünü dutar duman mığ-mığ.
Olsa hər yerdə zəri-şəltuk bol,
Salur ol məzrəyə məkan mığ-mığ.
Yeməmək yegdi bir belə aşı
Ki, duta anda aşiyan mığ-mığ.
Belə derlər qamışda həm çox olur,
Şir ilə həmməkan jəyan mığ-mığ.
Naciya! Qıl həzər bu heyvandan
Ki, budur qəbrini qazan mığ-mığ.

* * *

Könül, demədimmi eyləmə tuğyan[1],
Cavanlıq əlindən qaçar ağlarsan.
Beş qüvvə zahirdən, beşi batindən
Bədəndən quş kimi uçar ağlarsan.

Olasan quş kimi gögdə uçmaqda
Ənqa kimi Kuhi-Qafı keçməkdə,
Nə qədər gizlənsən künci boşqaqda,
Axırı qocalıq tapar ağlarsan.

Cavanlıqda bəxt bir az oyanır,
Hər görən kimsənə bir adam sanur,
Qocalıqda oğul-uşaq usanur,
Bəxt ü tale anda yatar ağlarsan.

Çünki səndə dən yox, quş gedər dənə,
Rəhm eyləməz öz övladın heç sənə.
Cavan vaxtı dəysən min-min tümənə,
İndi bir alçıya satar ağlarsan.

Etibar eyləmə bəgligə, xana,
Adam gərək bu işləri tez qana.
Oğul-uşaq qoyar səni sapana,
Bir sapan daşıtək atar ağlarsan.

---

[1] Morul kəndində qocalıq haqqında deyilmişdir

O gün ki lazımdır sənə bir kəfən,
Qohum-qardaş olsa əgər bir çətən.
Olmaz bir kimsənə dadına yetən,
Çağırursan havar-havar ağlarsan.

Ağ tüklər düzülür bir-bir qaşına,
Bir quyu lazımdır evdə şaşına,
Gündə gəlür yüz məlamət başına,
Ağlın, fikrin, zehnin çaşar ağlarsan.

Dedim ki qalursan axırı heyran,
Aldatmasun səni hər gözü ceyran.
Dərdü qəm toxmuni zarei-dövran,
Məzrəi-bədənə saçar ağlarsan.

Gördük bu dünyanın nəfyü, sudini,
Axtarub hər yerdə məzhəbi-dini.
Nə qədər gizləsən bədən eybini,
Genə bu qocalıq tapar ağlarsan.

Göz gedər əlindən görə bilməzsən,
Mətləb güllərini dərə bilməzsən,
Oturan yerindən dura bilməzsən,
Uşaqlar üstünə ......... ağlarsan.

Ağarub saqqalın dönər süməgə,
Ağızda diş olmaz xörək yeməgə,

Bir həmdəm tapılmaz dərdin deməgə,
Qalursan naəlac, naçar ağlarsan.

Oğul-uşaq tamam incir dilindən,
Bir köməkçi olmaz sana elindən,
Baş yoldaşı əgər getsə əlindən,
Başına qiyamət qopar ağlarsan.

Dünyanın ləzzəti səndən daşını,
Bədənin hər zaman durar qaşını.
Dərd-qəm ləşkəri çəkər qoşuni,
Bədən əmlakın, çapar ağlarsan.

Yaxşı söz də desən heç kim inanmaz,
Saqit olur səndən o ruh aşınmaz.
Mətləbini desən, heç kimsə qanmaz,
Dərdü qəm başından aşar ağlarsan.

Tapılmaz içməgə bir içim ayran,
Vay qəlur evində quru ola nan,
Bu namərd ruzigar, bu qəhbə dövran,
Arxana bir zurna soxar ağlarsan.

Xörəksiz dayanmaz bir dəm ürəgin,
Gərək olsun evdə hər nə gərəgin.
Olmasa bircə gün yarar xörəgin,
Gözündən qanlu yaş axar ağlarsan.

Çün qocaldın barı gərək yeməgin,
Evində can yanan ola köməgin.
Ac olanda zır-zır gedər deməgin,
Həsrət ilə ələ baxar ağlarsan.

Vay odur olmuya cibində pulun,
Danışa bilməzsən, heç olmaz dilin,
Yəqin bir o zaman yatacaq ..........
Arvad səni şişə taxar ağlarsan.

Gərək güc verəsən ...... zamanda,
Baldırın dolaşır qaçan zamanda,
Bir ağac körpüdən keçən zamanda
Qıçın titrər, gözün axar ağlarsan.

Evdən oğurlasan bir şeyi xəlvət,
Başını əzəcək yəqin bil övrət.
Deyər səndə məgər yoxdu heç qeyrət,
Basar kimi səni basar ağlarsan.

Ac qalsa bir qoca heç gözü görməz,
İştah olan yedugini ötürməz,
Çox yeyərsən, mədə onu götürməz,
Yedügin təamı qusar ağlarsan.

Yürəgin ölümə gər ola  qail,
Olma bu dünyanın eyşinə mail.

Tez olur üstünə gəlür Əzrail
Ruhun bu qəfəsdən ucar ağlarsan.

Yalandan ağlasur oğul-uşağın,
Qalacaq onlara mülk ilə bağın,
Mürdəşir yuyacaq .............
Gurkən qəbrini qazar ağlarsan.

Üstünə yetişür bir-iki mələk,
Deyərlər nəyin var, bir gətür görək.
Şahi-Mərdan sana olmasa kömək,
Dilin tutmaz, əqlin caşar ağlarsan.

Ey xuda! Eyləmə dilimi əbkəm,
Olmiyaq acizraq o yerdə bir dəm,
Olmasa cavabın anda müstəhkəm
Qəbrini bir bərk sıxar ağlarsan.

## Eyzən dər məzəmməti-dünya və əhli-u

Əla ey xaliqi-bimislü bimanəndü bihəmta,
Həme balatərinlərdəsənü balasan, ey mövla.
Fələklər həm mələklər dərgəhində acizü müztər,
Biri müxbir degildir zati-pakindən sənin əsla.
Nəbilər həm vəlilər bəs ki səyi-costcu etdi,
Kəsi vaqif degildir sirri-zatından sənin haşa.
Əgər sənsən səni xəlq eyliyən, bu feli-süflidir.
Əgər bir özgədir allah odur bəs sən nəsən peyda?
Bu mövcudat kim aləmdə var səndən hüveydadır,
Cəhan əz aləti sən eyliyibsən, ey cahan ara.
Xəyalın teyrini hər vəqt pərvaz etdim ətrafa,
Xəbər yetdi bana yox intəha, hiç eyləmə cuya
Ki, yoxdur intəhası çar ətrafın dürüst baxsan,
Nə balayi-fələk məlumdur, nə ziri-in ğəbra.
Qəriqi-bəhri-heyrətdir üquli-cümlə məxluqat,
Belə xaliq, belə qadir, belə ustadi-bihəmta.
Buyurmuşdun ki, mən bir kənzi-məxfi var idim əvvəl,
Gətürdim bu cəhan içrə bəni dərk eyləsün əcza.
Nə əcza? külli məxluqat bu əhvalə şahiddir.
Məvalidi-səlasə, həm ənasir cümleyi-əşya.
Əgərçi dəhrə gəlmiş ənbiyalar kamilü aqil
Ki, səndən özgə yoxdur hiç aqil, kamilü dana.
Buyurdun bədvi-xilqətdə məlaik eyləsün səcdə,

Edub iblis nəhy səcdeyi-adəm olub rüsva.
Dedin övsafını bir-bir behiştdə hər nə nemət var,
Mənazil xəlq üçün anda olan qılman, həm hura.
Olan cari içində nəhrlərdir şəhdü şəkkərtək,
Dəxi xəlq eyləyübsən anda sən bir nəxleyi-xurma.
Cəhətdən dəxi verdün bir xəbər məxluqə bildirdün,
Nədəndir bilmirəm bu xəlq olmuş beylə biparva.
Bu beş gün ömrə xatircəm olub əndişə etməzlər
Gedənlər getdi, biz həm gedərük ağla vü həm oyna.
Üç adəm var getməzlər, məgər öz vəqtini gözlər –
Biri Xızrü biri İlyas, biri Mehdidi müstəsna.
Nə bir xovf eyləməzlər nardən, nə tamei-cənnət,
Olublar cümləsi dinarü dirhəm sacidi guya.
Xudavənda! Özün bu dirhəmü dinari xar eylə,
Odur bais bu xəlqi-ruzgarın felinə hala.
Edübsən dirhəmü dinarı çox şirin ba izzət,
Qılubsan qəlbi-məxluqi ona mail sən ey mövla!
Ümumən xəlq talibdir ki, etsün cəm simü zər,
Xüsusən pur təmahdır anlar içrə firqeyi-molla.
Nə xovf eylər cəhənnəmdən, nə cənnət arzu eylər,
Bilürlər özlərin bu hirs ilə çox kamilü dana.
Verürlər çox nəsihətlər bu xəlqə, özləri amma
Sanurlar baqidir, olmaz fəna biqədr olan dünya.
Bu dəhrin inqilabından qarışmış bir-birə yeksər,
Müsəlman ü cühudü gəbr tərsa, pir həm burna.
Bu məxluqun əlindən hər zaman qüz fitnə peydadır,
Qaçubdur xalq əlindən asimanə dardən İsa

Budur səndən bənim hacatım, ey bimislü bimanənd!
Uzaq eylə bəni bu xəlqdən, ey xaliqi yekta!
Bənim həddim degil səndən təmənna eyləyüm cənnət,
Bana hər yerdə dilxahındurur sən orda ver məva.
Mənəm Naciyye-biçarə, ələm tapdağı dünyada
Xuda vermiş bana bir qəlbi-nazik, fərqi-pür sevda.

* * *

Bu vaqiətdən ta ki, könül ba xəbər oldu[1],
Aşüftələnüb çıxdı genə dərbədər oldu.
Təb atəşinin ismini tez yadimə saldım,
Atəşkədə tək cismim evi pürşərər oldu.
Dərdi-sərini yadimə gətdim bəhəqiqət
Ol dərdi-sərin başimə bir dərdi-sər oldu.
Təmi-dəhənin təlxini fikr eylədim əz bəs,
Hənzəl səmərindən dəhənim təlxtər oldu.
Al səhhətimi, qoy mərəzin canimə gəlsün,
Vallahi, deməm hiç bu sevda zərər oldu.
Xəmyazə ilə lərzi-şədidin bana göndər,
Qoy xəlq desün Naci genə bəxtəvər oldu.

[1] Mirzə Adıgözəl bəyin kiçik oğlu Məmo ağa qızdırma olmuşdu, o münasibətlə dedim

* * *

Qıl bir nəzər bu dideyi-xunbarə, ya Əli[1],
Qalmış Səkinə bikəsü biçarə, ya Əli!
Bən əndəlibi-gülşəni-rüxsarinəm çe sud!
Etdi fələk düçar bəni xarə, ya Əli!
Görmə rəva ki, Zeynəb ü Gülsümi - xəstəni,
Şümri-ləin ta çəkə bazarə, ya Əli!
Ləlin kimi dönüb cigərim qanə, ya əziz!
Zülfün kimi bəxtim olub qarə, ya Əli!
Könlüm quşu tələb qılur etsün təvafi-şəm,
Pərvanəvar şöleyi-rüxsarə, ya Əli!
Qəddin yanunda dalə dönüb cümlə sərbəsər,
Sərvin nə həddidir gələ rəftarə, ya Əli!
Tuti kəlamını eşidə tuti lal olur,
Heyran qalur o ləli-şəkərbarə, ya Əli!
Naci dutanda damənini ruzi-həşrdə
Rəhm ilə eylə dərdinə bir çarə, ya Əli!

---

[1] Səkinə Ələkbərin başını nizənin ucunda gördü, bu tərzdə ağı deyib ağlamağa başladı

* * *

Ey məni bəhri-qəmə qərq eləyən türfə cəvan[1]!
Ey mənim könlümü məğşus qılan alişan!
Bir xəyal eyləmədinmi  bu qədər müddətdə
Nədi cürmi kişinin biz muna etdük bu zaman.
Köhnədən bəndə ilə bir ğərəzin ki, yox idi,
Məmləkət içrə bizə düşməni etdin xəndan.
Gəncədən Şəmsədinə biz nə ümidə gəldük,
Sizə layiqmi evindən belə getsün mehman?
Bəs ki könlümdə mənim sirri nihanım vardır
Ki, gərək olmiya naməhrəmə bu sirr bəyan.
Gər cənabınla düşə bir də mənim sərkarım,
Olacaq hoqqeyi-batin sizə ol vəqt əyan.
Pesəri-sufiyi-nasaf köpəkoğlu köpək
Həm zəban oldu anan ilə bana dəgdi ziyan.
Demədi heç birisi həqqi, sözü gizlətdi,
İkisinin arasında bu iş oldu nihan.
Necə ki verdi mənim muzdumu ol Fatma xanım,
Eylə də versün ona qadiri-həqqi-Sübhan.
Yetməsün mətləbinə dari-fənadə hərgiz,
Can verən dəmdə onu həqq eləsün biiman.
Duxtəri-bikr ilə Qəttaniyə olsun yoldaş,

[1] Bala Məhəmməd ağanın müalicəsi üçün getmişdim. Müalicədən sonra bir qədər pul verib, özü divanbəyinin evinə getdi. Anası Fatma xanım bir oyun gətirdi. Oğlu nə vermişdisə, onu da atıb, oradan çıxdım. Və bu nəzmi yazıb göndərdim.

Məskəni nari-cəhim, içduyi olsun qətran.
Gərçi bu vəqtə kimi səbr elədumsə bəsdir,
Olacaq faş bu iş qalmıyacaq dəxi nihan.
İstərəm yazmağa bir şərhi-mütəvvəl həcvi,
Baxmıyam ağ-boza ....... ölən ilə qalan.
Leyk bir həcvi ki əlfazı təmamən mövzun,
Lənəti-həqq bana gər ola birində yalan.
Yazaram bir neçə kəlmə sizə olsun məlum,
Göndərin haqqımı ta söyləməyək yaxşı-yaman.
Qəsəm ol xaliqi-biçunə, ona zahirdir,
Deyəcək həcvini Qəfqasdə məcmui-lisan.
Sana bir toy tutaram külli-vilayət içrə,
Gülər əhvalına, vallahi, sənin pirü cəvan.
İldə bir həcv sənin şəninə yazmaq borcum
Ki, baxub ləzzəti-kamil tapa əhli-irfan.
Hələ bu həcv degil, pişrovi-həcvdi bu,
Gələcək sonra əgər olmasa hasil dərman.
Necə sizdən bana nahəq yerə çün yetdi kədər,
Sizə bir niş dəxi bizdən olur bipayan.
Yıxma bir qəlbi ki, allah öz əlilə tikmiş,
Bu səbəbdən deyilübdür ona beytül-rəhman.
Nəzəri-huş ilə bax, hökmi-xudanı fəhm et,
Nə buyurmuş bizə gör ayəti-hökmi-Quran.
Naciya! Söyləmə bihudə, özün incitmə,
Şəmsədin əhli pis işdən ola bilməz peşman.

* * *

Ey qılan nəzm ilə bu könlüm evin nurani[1],
Ey bana eydi-büzürg eyləyən aşurani,
Ey qılan Gəncəni qəlbim evitək viranə,
Sayeyi-lütf ilə məmur eləyən İrani!
Olma ikrah, əzizim, hacıdan, olma məlul,
Əhli-dillər keçürübdür bu tövr dünyani.
Gər bu dünya zəhəmatına kişi səbr etməz,
Sən yəqin bil tapa bilməz o kişi üqbani.
Xeyrdir hər nə ki vaqe ola dünyada cana,
Təng dutma ürəgin, fikr eləmə fərdani.
Bəhr tək saf, mübərra ürəgin saxlagilən,
Nə qədər seyl ola, çox tirələməz dəryani.
Olma şaki bu qədər gərdişi-dövrandan sən,
Bu qəzanın işidir, əmrdi bu rəbbani.
Olsa muxtar xəlaiq qamu dünya işinə,
Salur, əlbəttə, olar aləmə yüz ğovğani.
Bax əhadisə, nəzər eyləgilən ayatə,
Etmə qəlbin evini sən bu tövr zülmani.
Qıl həvalə işini xalıqə, neylər etsün,
Kuşiş etmə edəsən işlərini fuqani.
Odu fəqr əhlinə vermiş rəvişi rəncü təəb,
Həm odur övc eləyən mərtəbeyi-şahani.
Quvvəti-yussiyə möhtacdı bəzi əşxas,

[1] Ağa İsmayıl (Zəbihin) bəndəyə göndərdiyi zəmanədən şikayət və qardaşının nasazlığından bəhs edən mənzuməsinə cavab olaraq yazdım

Bəzi kəslər geyinib xələti-istifani.
Çox kəmal əhlini gördüm necə məfluk olmuş,
Əhli-nadanə verüb dəbdəbeyi-kimyani.
Yazılub lövhi-qəzavü qədərə bu məzmun,
K-ola xəndan Yezid, ali-Əli giryani.
Bumtək könlüni viranəyə sal, eylə nəzər,
Çünki abadü xərab axır olur virani.
Nə qədər məstligə şövq eliyə badəpərəst,
Aqibət xali görür badədən ol minani.
Hacı gər ayineyi-qəlbini nasaf etsə,
İki nəvvadələrin rövşən edərlər ani.
Bülbül ər xarə baxub qəlbini məhzun dutsa,
Bir tərəfdən görəcək bərgi-güli-rənani.
Nuş ilə nişi bərabər qoyub əvvəldən həqq,
Zəhrü tiryaq kimi xəlq eləyüb zidd ani.
Xovf dəryadən edə ya ki, nəhəngdən hərgiz,
Kəşti təhsil edə bilməz o dürri-ğəltani.
Müxtəsər, kim ki bu dünyayə gəlüb ya gələcək,
Yoxdurur səbrdən özgə bir anın dərmani.
Ol ki səbr eyləməyüb istər edə istədügin
Həqq belə kimsənəyə xəlq eliyüb niyrani.
Mən özüm də bu vilayətdə müsibət çəkirəm,
Sərnigun ola görüm beylə yaman dövrani.
Nə ənisi, nə də bir munis ü nə bir ğəmxar,
Nə birində görürəm mərifəti-insani.
Olsa bir sirri-xəfi qəlbdə yer yox deməgə,
Budu dərmanı, qala qəbrə kimi pünhani.

Getdi həmdərdlərim cümlə əlimdən yeksər,
Bu vilayətdə qalur indi qamu şeytani.
Annıyan, dərd bilən sirr yeri bir dənə yox,
Qalmışam badiyeyi-heyrət ara heyrani.
Naciya! Çək əlini, düş yola, get, durma dəxi,
Mizban xar dutar dir köçən mehmani.

## Hüseyn ağa ibn Mərhum Mirzə Adıgözəl bəyin bəxşişi və paxılı haqqında həcv

Ey bana kureyi şəfqət buyuran alişan!
Saxlasun hifzi-amanında səni rəbbi-cəhan!
Xeyrxahın ola dünyada sənin aliqədr,
Düşmənin zillət ilə xak ilə olsun yeksan.
Gülşəni-eyşin ola badi-xəzandun məhfuz,
Yetməsün dövlətinə dəhri fənadən noqsan.
Seyfi-bəxtin ola borra, tökə düşmən qanın,
Hasidin qəlbi həsəddən ola misli-buryan.
Sağəri-eyşin ola rahi-səfadan ləbriz,
Əhli-bəzmin ola daim bu səfadan xəndan.
Daima dildə təmənna elərəm bən ki sizi
Vadiyi-dəhrdə həqq eyləməsün sərgərdan.
Məğfərət pişəlü mirzani xuda əfv qılub,
Öz əmanında sizə ömr verə bipayan.
Neçə kəlmə sizə bən mir-ğəzəbdən danışım,
Ola ta həm sizə halatı anın kəşfü bəyan.
Sizə təşrif aparandan sora bən bir neçə söz.
Danışub bu gözü çəp, əgri burun xülqi yaman.
. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .
Adı Qasım, özü xəbbaz, pəsəri ibn Zəman.
Bu imiş zənni o məluni-ləinin kim siz
Bir kəsə lütfü əta etmiyəsiz ğeyri-ziyan.
Onda gər olsa idi əqlü şüurun əsəri,
Təməh etməzdi anın xaneyi-eyşin viran.

Bağdən səbzə çıxar şura zəmindən xaşak,
Leyk hər mülkə düşər lütfi-xudadan baran.
Bilmədi qədrini bədzat, dəni, nakəsü dun,
Yetdi sizdən ona çox lutfi əta, çox ehsan.
Vəsfi-rüxsareyi-xurşidi nə bilsün xəffaş,
Ayəti-möcüzi-"Quran"i nə bilsun şeytan.
Heydərin qürbü civarında alırkən kamin,
Aqibət eylədi məqtul anı bir biiman
Ali-peyğəmbərə şəmşir çəkənlərdəndir,
Şühəda tənlərini eylədi bunlar üryan.
Əhli-zülmə ki, xudavənd buyurmuş məşhur,
İn həmanəst həmanəst həmanəstü həman.
Fikrü tədbir ilə versən qara daşə seyqəl,
Rəngü rövnəq tapa, olmaz yenə dürri ğəltan.
Olmasa zati-kəsifində səadət kişinin,
Gər ibadət qıla yüz il, tapa bilməz iman.
Bu haman səgbeçələrdəndi ki, çıxmış bu yerə
Tarı bilsün ki degil söylədigim söz böhtan.
Ruyi-napakinə gər baxsa bilür hər aqil,
Haqq bilür doğrudu, nə həcvidi bu, nə hədyan.
Sübhdən axşamadən işləri rövnəq bulmaz,
Hər kimin qarşusuna rast gəlüb çıxsa rəvan.
Kim görüb kimsədə gör bir belə tələt ki budur
Gəzəsən cümleyi-əmlaki-cəhanı hər yan.
Saqqalı əgri, gözü həm, dili kəc, burnu dəxi,
Kazibəm gər var isə söylədigim sözdə yalan.
Yaxşi irşad elədi beççə zəmanında bunu,

Şamaxı sakini məxdumum olan şəxsi-filan.
Müxtəsər siz bana bəxş eylədugin dayi görüb
Sanasan dəgdi o məlumə o dəm külli ziyan.
Kürənin rəngi kimi rəngi dönüb zərd oldu,
Ona bir dərd olub tarı bilür bidərman.
Dağı-ranendəki tək köksünə yüz dağ düşüb
Leyk bu dərdini eldən yaşırur xeyli nihan.
Həsəd əhlinə bu bir dərdi-nihandr, leykin
Edə bilməz anı heç bir kəsə məlumü əyan.
Bu sifat ilə urur tibb ülumundan dəm,
Tanımaz, dərk eləməz xürfə nədir ya şivəran.
Mərəzi-möhrəqədən fəsd buna adətdir
Yedirir həbbi-əyaric ilə dühən bələsan.
İçirür abi-ənəb, şərbəti-ribas verür,
Qış günü görsə əgər bir kişi olmus xəfəqan.
Daneyi-qərçəgi bu həbbi-səlatin sanur,
İşlədür bərgi-səananın yerinə qavi-zəman.
Hər kimin çöhrəsini zərd görür fövri deryir:
Bunun azarı gərək dəqq ola ya kim yərəqan.
Nə rəvadır belə heyvan geyə adəm rəxtin,
Bu himarın dalına qoymağa lazımdı palan.
Ğayəti-elmü kəmalın görən, əlbəttə, bilür
Gər təəmmül nəzərilə baxa hər aqil olan.
Naciya! Ğəm yemə, səbr eylə, dolansun əyyam,
İntiqam almağa çoxdur, belə getməz dövran.

# Bax

Daireyi-gərdişi-dövranə bax.
Anda olan arifi-heyranə bax!
Gərdişi-dövranın işin fikr elə,
Qadiri-sübhanı düşün, anə bax!
Sabitü səyyarə təmaşə elə,
Bihuş olub məst ilə məstanə bax!
Səthi-zəmin gör nə gözəl fərşdir,
Seyr elə bir ərşi-müəllayə bax!
Ey göz, oyan sən nə yatarsan belə,
Aç gözünü qüdrəti-yəzdanə bax!
Seyr elə bir dəhrdə bu gülşəni
Gülşən ara sərvi-xuramanə bax!
Gör nə çıxubdur qara torpaqdən,
Əhməri gül, sünbülü reyhanə bax.
Daş degil buğdanı un eyliyən,
Sudur, əzizim, o dəgirmanə bax.
Bir tərəfə baxma, ayıl, ey gözüm,
Eylə təvəccöh genə hər yanə bax.
Tüyurü vəhşə elə nəzzarə bir,
Sonra gəlüb bu gözəl insanə bax.
Cəvahir ü ləl ilə yaquti gör,
Bular bitən mədən ilə kanə bax.
Qətreyi neysanə təmaşə elə,
Bəhr içidə lölöi - mərcanə bax.
Məzahibin cümləsini seyr elə,

Şəriət əhlindəki Qurana bax.
Nə rütbədir verübdilər Yəzidə,
Kərbübəlada tökülən qanə bax.
Cüreyi-su vermədilər Əsğərə,
Oldu şəhid Əkbəri-nalanə bax.
Bu dünyanın işlərinə bax dürüst,
Gərdişi-bu dəhri-pərişanə bax.
Yetmiş iki milləti cuya elə,
Taifei-gəbr, müsəlmanə bax.
Hamusuni seyr eləyəndən sora,
Adəti gör, din ilə imanə bax.
Eylə ki seyr eylədin aləmləri,
Sonra gedüb ayeyi-lukanə bax.
Birdi mübaşir bu əsasa təmam,
Anyamasan nayi ilə nayə bax.
Əsli, zatı şişələrin daşdır,
Daşdan olub saf o minayə bax.
Kərimdir Kəlim ilə danışan,
Diqqət ilə o Turi-Sinayə bax!
Xaliqinə gətürmə şəkk, ey gözüm,
Şəkk eləsən ayeyi-ufayə bax.
Eyləmə təkyə belə dünyayə sən,
Kor dəgsən, fanidi dünyayə bax.
Cümlə nəbilər sana vermiş xəbər,
Nəsihətü kəlami-mövlayə bax.
Kəlab edər laşədən ötrü savaş,
Kəlabə bax, laşəvü qövğayə bax!

Razı olub padşahın qətlinə,
Gör necə bir Həmid-paşayə bax.
İstədi Nəmrud ki, yansun Xəlil,
Atəş içində gülə, gülzarə bax.
Kamil idi eşqdə Sənan bəsi,
Sinədə xaç, beldə o zünnarə bax!
Neçə il oldu ona donquz güdən,
Eşqə təmaşa elə, tərsayə bax.
Hifz elədi Əhmədi tar ilə ğar,
Tar ilə ğarı yeturən yarə bax.
Qəzayi-rəbbanidi bunlar təmam,
Huseynə bax, Sümri-sitəmkarə bax.
Hər biri bir rəng çıxub xakdən,
Aç gözünü bu gözəl izharə bax.
Tələlə eylər necə dürri-xoşab,
Pərvərişi-qüdrəti-mövlayə bax.
Şəqq eliyən Nili degildir Kəlim,
Möcüzeyi-həzrəti-Musayə bax.
Gəldi necə bu aləmə bipedər,
Getdi gögə həzrəti-İsayə bax.
Qoydu cahanda neçə qanunlar,
İncilə bax, ya o kəlisayə bax.
İstədi Firon edə allahlıq,
Ol köpəgin başında sevdayə bax.
Ğərq idi dəryayi-qürur içrə ol,
Eylədigi hirsi-təmənnayə bax!
Qeysi salan dağlara Leyla idi,

Eşqə təmaşa elə, Leylayə bax.
Eşq idi baqi eləyən anları,
Hekayəti-Vamiqü Əzrayə bax.
Yusifi röyyadə Züleyxa görüb,
Sədaqəti-xabi-Züleyxayə bax.
Nuşirəvan verdi xəbər Xosrova
Tapdı o Şirini, bu röyyayə bax.
Qılma nəzər mövcü hübabi-yəmə
Bəhrə təmaşa elə, dəryayə bax!
Gör necə xəlq eyləyüb allahımız,
Məh cəmala, zülfi-çəlipayə bax!
Bular tamam xakdən olmuş pədid,
Qüdrəti-mövlavü təvanayə bax.
Tərk elədi cənnəti buğda üçün,
Adəm ilə həzrəti-Həvvayə bax.
Bəzini xoşbəxt eləyüb dəhrdə,
Bəzisinin bəxtidi idbarə bax.
Kəlmeyi-Mənsuri nə bilsün bu xalq,
Çəkdi cəmaət onu gör darə bax.
Şümri-ləin kəsdi Hüseyn başını,
Felə təmaşə elə, kirdarə bax!
Əhli-cəhan hər biri bir tövrdür
Birisi naqis, biri huşyarə bax.
Pərvərişi Süheyldəndir günün,
Sənəti-baridi,o bulğarə bax.
Sövti-həsən vermiş idi Davuda,
Sövtilə o çaldığı mizmarə bax.

Nimarı mismar eləyən Zülcəlal,
Nimarə bax, həm get o mismarə bax.
Mar ilə tavus olub həmzəban,
Seyr elə tavus ilə sən marə bax.
Adəmi bunlar çıxarub behiştdən,
Hiyləyə bax, məkr ilə məkkarə bax.
Ruzi verən xəlqə o xaliqdurur,
Pərvərişi-cümleyi-əşyayə bax.
Bizim ona taətimiz yoxdu heç,
Anda bizə lütf ü hüveydayə bax.
Eyləmədi qəbul peyğəmbəri,
Əbu Cəhli-ləinü xodrayə bax.
Söylədi peyğəmbər ona, ey ləin,
Səmadə münşəq olunan ayə bax.
Nisfi gecə bu dünyanın nisfigün
Afitabi-cəhan arayə bax.
Getdi o iblis Saranı aldada,
Çıxmadı yoldan o Sarayə bax.
Oyhəm idi Buxarada padşah,
Oldu gəda şah Buxarayə bax.
Xərabələr Ouhəmə məva idi,
Seyr elə bir mənzilü məvayə bax.
Fanidi bu dəhr sərapa həme,
Yatma, oyan bir o sərapayə bax.
Tamaşadı bu xaliqin işləri,
Aç gözünü, Naci, tamaşayə bax.

* * *

Ərzimə guş qıl, ey şiri-xudanın şiri[1],
Etdügin vədə ilə şad edəsən bu piri.
Gözümüz yolda qalub guşimiz avazında,
Nədir aya görəsən bu ağanın tədbiri.
Cəhd qıl şad elə bir qəlbi ki, allah buyurur,
Verməsün həqq sana dəhrdə bir dilgiri.
Gözləsən canibi həqqi olusan həqq ilə yar,
Yetişür dövlətinə bir bərəkət təsiri.
Himmət et, sir elə hər yerdə ki görsən bir ac,
Olmiyə ac edəsən dəhrdə sən bir şiri.
Dəhr zalindən əgər olsa mükəddər qəlbin,
Qəlbini rövşən elə, aç oxu bu təfsiri.
Yoxdu bir ləzzəti-kamil bu fəna aləmdə,
Görmiyüb kimsə genə əhli-səxadan qeyri.
Həqqi axtarsan əgər öz yürəgindən axtar,
Nə rəvadır gəzəsən məscidi sən, ya deyri.
Eyləsün həqq səni dəhrdə daim məsrur,
Dəgməsün canına bu dəhri-həvadis tiri.
Düşmənin xar olub, dustun olsun dilşad,
Kəskin olsun həmişə bəxtinizin şəmşiri.
Bizə vədə olunan buğdanı sən göndərəsən,
Yoxsa divanə kimi paralaram zənciri.

---

[1] Şirəli ağa xəstə olanda onun müalicəsini Əsgər ağa ilə bir tağar buğdaya danışdıq. Vəd olunan vaxtdan çox keçdi. Bu nəzmi yazıb göndərdim.

Gər desən yoxdu mənim bu sözə heç iqrarım,
Əskərindir bu qəbahət eləyüb təqsiri,
Yetişübdür bizə bu vədə haman oğlandan,
Vəzir ilə şəh arasında nədir tofiri.
Dəhrdə adəm olan dedigü sözdən dönməz,
Eyləməz aqil olan məkrü hiyəl tədbiri,
Bir tağar gəndüm ilə kəndümü xoşhal eylə,
Mən ölüm ərk yana dəng eləmə bu piri.

* * *

Ey xaliqi-bimisalü biçun[1]!
Ehsanını eylə, qoyma qalsun.
Ehsandı bizə, bəla degil bu,
Cərrah istər yara sağalsun.

[1] Bu qitə 1296-cı ilin cumadeyi-əvvəl ayında (miladi ilə 1859-cu ilin noyabr-dekabr ayları) Azərbaycana çəyirtkə hücumu olmuş, əhali onu qırdıqca günbəgün çoxalırmış. Naci bu hadisəni görmüş və bu qitəni yazmışdır.

# Həcvlərdən seçmələr

*( Bəziləri ixtisarla )*

Beşnu əndərzi-məra, faizi-hər əncümənəst[1],
Əndəlibi-süxənim cəh-cəhi-kuyi-çəmən əst.
Pişi-ərbabi-həsəd nist mər ura qədri,
Bəri-əshabi-bəsarət həme dürri-ədənəst.
Çeşmi-əhli-nəzəranra həme zuvvəst ü ziya,
Gərdəni-əhli-həsədra həme tuğü rəsənəst.
Nəzdi-ərbabi-ğərəz təlxtər əz hənzəlü səbr,
Bəhri-ətfali-təbiət həme şəhdü ləbən əst.
Ğafil olma göz açüb nik nəzər eyləgilən,
İn çənin qövl xurafat ze ğafil şödənəst.
Pəsi-ainədə durmuş biri təlim üçün,
Hər kəsin tutiyi-təbini o kəs ögrədənəst.
Yox mədəniyyət yeri bu babdə səndə hərgiz,
Edəcək dışra tərəşşöh o ki əndər bədənəst.
Qoyulub büxlü həsəd qalibinə əvvəldən,
Çək əzabındı sənin, bu sənə virdi köhənəst.
Feli-əqrəb ki be in qövl güvahəst səhih,
Daima əz peyi-azar befikri-zədən əst.

---

[1] Qarabağ şairlərindən Asi təxəllüs həsəd üzündən mərhum Mehdiqulu xanın qızına həcv yazıb, Gəncəyə göndərib. Gördüm xalq arasında oxuyub gülürlər. Halbuki, cəddi pambuq atan (həllac) olub. Mərhum xan onu gətirib, saray yaxınlarından edib, yaxşı mənsəb verib, hələ bəyzadə edib. Bəndəyə onun bu sifəti çox pis gəldi. Başqa səbəb odur ki, mərhum Cavad xanın nəvələrindən idi. Təəssüb hissi ilə onun cavabını yazıb qohumlarına, yaxınlarına göndərdim.

Düxtəri-xanə neçün siz olasız movizəqu,
Karvanə nə qədər it ürə, karvan keçənəst.
Vəz ol yerdə gərəkdir, sözü məsmu oluna,
Nə ki ol kimsəyə ki hərzə kəlama çezənəst.
Bu qamu xam təməlik yoludur başlamısan,
Köpəgin nəfsini gör qeysəbədən pay umanəst.
Sizə şayəstədi bir çömçə ilə səqsi çanaq,
Buna göz tikmə, bu bir çinivü bari-fetənəst.
Bir xəyal eylə, gör, oğlan, kimin övladıdı bu,
Ata-babası munun faili-cəngi-Pesənəst.
İbrahim xan degildirmi ki, sizdən həme şəb,
Bir nəfər düxtəri-pakizənizi çökdürən əst.
Baniyi-qəleyi-Şişə o Pənah xan hanı?
Rəzm ü cəngi həme övqat anın səfşekənəst.
O Pənah xan idi ləşkər çəküb İranə gedüb,
Urumi hakimi Cadiq xana kəndir eşənəst.
Ata-babalarınız it kimi quyruq buluyub,
Dərbarında oların hamusi yal içənəst.
Şimdi bu gərdişi-əyyam təqazasından,
Sən kimi itlər ona əf-əf edubən ürənəst.
Heç həya eyləmədin xani-əzimuş-şandan,
Feyz ü ənamı anın şamili-hər mərd ü zənəst.
Neçə nakəsləri kəs eylədi ol kani-kərəm,
Bivətən kimsənələr sahibi-mülkü vətənəst.
Əbri-feyzi-kərəmi cuşə gələn dəmdə anın,
Baisi-zindəgiyi-susəni sərvü səmənəst.
Düxtəri-xanə baxınca özünə eylə nəzər,
Karibarın həme ruzanü şəban məkrü fənəst.

Seyyidin husni-cəmalı sana çox bəd görünür,
O göz ilə bax ona oni ona görkəzənəst.
Görmə bihudə bu ainədə çox zadlar var,
Demə dünyayə ki, dünyayi-dəni ................
Çox kəsin feli sana bəd görinür dünyadə,
Zahiri qoy yerə adəm odi batin görənəst.
Bu o dünyadi ki çox kimsənə şahlıq tapdı,
Çox şəhənşah gədalər kimi əndər həzən əst.
Demə bihudədi bu gərdişi-dövrani-fələk,
Baxma yayı çəkənə, bax ona kim çəkdirənəst.
Cürm həmvarə şikayət o gəzəndən eylər.
Feli-kəffaşdı bunlar nə ki cürmü gəzənəst.
Feli-bəd çoxdu bu dünyadə, qamudən bədtər,
Dəhəni-bəd, dəhəni-bəd, dəhəni-bəd dəhənəst.
Nə rəvadır ki ola Xan qızı sizdən incik,
Hər kimə baqsa, görər ki, o da andan kəsən əst.
Neyləsün düxtəri-xan, hansını etsun razı,
Bu təmənnayə düşən sənkimi hər ...................
Adəti-dəhr budur doğru deyəsən o sözi,
İbn Davud məqamında duran Əhrimənəst.
Nə təəccüb yeri var bunda ki, siz eylərsiz,
Şahbaz ovlağı cövlangəhi-zağü zəqənəst.
Bax təvarixə, nəzər eylə gələn əxbarə,
Ruzigarın işidir, gərdişi –dəhrü zəmən əst.
Padşahani-Kəyan noldu? Hanı Keykavu?
Pəhlivanani-cəhan səfşekənü tiğzənəst.
Hanı Cəmşid? Bina eylədi ahən qayırub?
Məzrəi-dəhri həme şəxm eləyüb əkdirənəst.

Hanı İskəndəri-zərtac? Hanı Nuşirəvan?
Qudrəti-hökmləri ta be Xətavü Xütənəst?
Pəhlivanani-cəhan noldu, qamu düşdü yola,
Bexüsusən oların sərsəfi ol Təhəmtən əst.
Hanı üşşaqi-bəlakeş? Hanı Vamiq, hanı Qeys?
Biri Şirin həvası ilə gedən Kuhkənəst.
Dərdü möhnət çəkənin biri Züleyxa idi,
Baisi-rənci anın Yusifi-gül pirəhənəst.
İki məşuqə həvasilə gəzərdi Xosrov,
Biri Şirin, birisi Şəkkəri-şəkkər şekənəst.
Düşdi səhravü biyabanə o Məcnuni-həzin,
Leyli Leyli deyübən mənzili-mərgə yetənəst.
Şimdi gəl bən sana bir ərz eliyim, ey şair!
Düşmə Seyyid ilə bu qədr ki cəddəş Həsənəst.
Gör anın cəddinə düşmənlik edənlər noldu?
Həme dər zəhmətü dər rəncü ələm dər mihənəst.
Şəqq eylər bədənin, cəddi anın şəqqiçidir
Şəqq etdi qəməri gögdə ki şəqq eyliyənəst.
Ol Yəzidin başına gəldi nələr dünyadə,
Aqibət nari-əzabi-əbədə həm düşənəst.
Biri ol Şümri-ləin, ibn ləin, ibn ləin,
Baisi-xuni-şəhidan həme bikəfənəst.
Biri ol ibni Ziyad idi behəngami-riza,
Ki, yazublar oni dəftərlərə kim it əmənəst.
Asiya! Asiyi-dərgahi-Əli olmagilən,
Zülfiqari-Əlidən eylə həzər, tez kəsən əst.
O, Əlidir, o, Əlidir, o, Əlidir, o, Əli!

Tifl vəqtində ki, gəhvarədə əjdər bölənəst.
Xaneyi-qəlbini pür eylə Əli hübbi ilə
Hübbi qəlbində olan kimsə Üveysi-Qərənəst.
Kim ki övladi-Əli ilə edə düşmənlik,
Sən yəqin eylə oni Əkbərə zərbət urənəst.
Bir məqam idi verüb həqq ona, eşşək, sənə nə?
O kişi vermiş ona aləmə yol göstərənəst.
Bu qədər büxlü həsəd səndə ki var, ğafilsən,
Bu mərəz dəqqə çəküb bağrını axır sökənəst.
Bu mərəz beylə mərəzdir ki, bulunmaz dərman,
Bavər etmə bu sənin bəd bədənindən gedənəst.
Bədənindən bu mərəz hiç sənin əl çəkməz,
Laəlac olmağı hər tibdə bu mümtəhənəst.
Atəşi-həqdü həsəd bir belə atəşdir kim,
Düşmə bu fikrə ki, hər ab ani söndurənəst.
Şiri-madərlə içübsən ani həngami-riza,
Ol zəmandan təni-napakinizə ol girənəst.
Mərgdir mərg əlaci ki ölüb qurtulasan,
Qorxuram anda dəxi əl götürüb getməyənəst.
Fikri-xeyr eylə düşübsən bu xəyalə, likən
Dutma ümmid ki, nəxli-əməlin bər verənəst.
Saxla ağzın, həzər et, bağla dilin, ol xamuş,
Ki, bu söz sahibinə səxt denüz .....
Tabe olma bu qədər nəfsinə, məqul əgləş,
Çox dögərlər öküzi, görsə boyun çəkməyənəst.
Baban ol toxmaq ilə yayı alardı əlinə,
Sübhdən axşamadən atduği panbuq dümənəst.
Bir qulaq ver, əzizim, vızvızının səsi gəlür,

Çox uzaq vəqt degildir, gözüm oğlan, dünənəst.
Biri öz nemətinin sahibinə həcv deyə
Nə təəccüb yeri var, zadeyi-pambuq atən əst.
Nə cəvab ilə əda eylərsən sən bu sözi,
Gər sual eyləsələr siz bəg olalı haçən əst.
Adəmiyyət necə mədum olubdur sizdən,
Nəsliniz cümlə təmam yedugi qabə ..... əst.
.... toxmağının dəstəsinə mən babanın,
..... sallayuban yayə bezən ha bezən əst.
İstəsən nəxşini bundan sora həm dəxi gəlür,
Bu ki bir həcv degil, cümləsi çərən-pərənəst.
Təlx bər versə əgər nəxl nədir bais ona,
Bilməzəm nəxldədir, ya ki o nəxli əkən əst.
Beyzeyi-zaği əgər pərvəriş etsən yüz il,
Axırında görüsən zağdı, ya səqsəqən əst.
Bir libası ki, əgər eyliyə xəyyat xərab,
Tikənin təqsiridir, ya ki ani tikdirən əst.
Boşalub saplağı gər düşsə yerə meyveyi-bağ,
Meyvənin təqsiridir, ya ki ani düşdürənəst.
Gedə bir elçi əgər danışa nalayiq söz,
Elçinin təqsiridir, ya ki ani göndərənəst.
Göndərə bir kori bir kimsə sala çahə oni,
O korun təqsiridir, ya ki oni göndərən əst?
Beyzədən dışra gəlüb beççeyi-bət üzgiçidir,
O anin felidi, ya kim oni bir üzdürənəst.
Yox məzəmmət yeri bu babdə səndən hərgiz,
Ki, dəbistani-ədəbdə sana təlim verənəst.
O dəbistan, o təlim bilürsən haradır,

Vəhşü teyrin rəvişin özlərinə bildirənəst.
Zən hesab eyliyübən cürət edüb həcv dedin,
Genə aslan-balasıdır, demə ona ki zənəst.
Çək atın başını, çox cürət ilə səgritmə,
Çox sənin kimilərə qəbr qazan gurkənəst.
Güli-gülzari Qarabağdu bu tazəvü tər,
Ya şəqaiqdirü ya susən ü ya yasəmən əst.
Düri-yekdanə deyim, ya ki, əqiqi-Yəmənəst.
Şali-Kəşmir deyim, ya zərbəfti-Dəkənəst.
Demə biqədr buna, qudrəti var, qadirdir,
Huşyar ol, əzizim, o nə mənəst, nə sənəst.
Demə ki, acizədir, gəlməz əlindən bir zad,
Nütfeyi-şiri-jəyandır, genə düşmən basan əst.
Qədəhin gördüm anın, təbimə çox pis gəldi,
Deməsün kimsə ki, boşqabə badımcan düzənəst.
İstəsə mədh əvəzində bizə ənam edələr,
Bir dənə xələti-şayəstə beh əz səd tümənəst.
Naciya! Dur yola düş, bəsdi dəxi dünyadən,
Çəkmə bari-ğəmi-dünyanı ki, səngin kərənəst.

## Şəhər əhalisindən şikayət və Hacı Abbas haqqında

*(ixtisarla)*

Söylərəm vəsfini bir hacının, ey əhli-bələd,
Doğmuyub, doğmuyacaq hiç anadan böylə vələd.
Vələdi-Yəziddən olmuş deyəsən hasil bu,
Yaxşı baxsa, biləcək aqil olan əhli-xirəd.
Mənsəbi-tazə tapub çünki olub "voyenni".
Hər kimi görsə, deyir "ustupay yebutvayu məd".
Gər qulağı kəsiqə müjdəni kimsə apara,
Titrəşür qəbri anun, rəqsə gəlür səngi-ləhəd.
Həcərül-əsvədə urdun yüzünü, ey napak!
Görüm olsun o yüzün həşr günündə əsvəd.
Abı-zəmzəmdən içən kimsəyə layiqdirmi
Ki, rəvəd, həmdəmi-küffar şəvəd, badə xörəd?
Tutmadın hörmətini Kəbeyi-beytullahın,
Nəslini puç eləsün qadirü qəyyumü əhəd.
Sənki pəhriz eləməzsən füqəra ahından,
Mərəzi-dəqq ilə öldürsün o qəffari səməd,
Dari-dünyada keçə zillət ilə övqatın,
Ruzi-məhşərdə sənin düşmənin olsun Əhməd...
Yemisən pulunu çünki füqəra gəncəlinin,
Yanasan atəşi-duzəxdə qədimü sərməd...
İstərəm şəninə bir həcv deyim, ey məlun,
Duşə dildən-dilə, əldən-ələ ta ruzi-əbəd...
Həvəsi-bəglik ilə işdən olub avarə,

Çarşənbə ititək hər tərəfə bəs ki dəvəd.
Xam fikr ilə düşüb gör nə uzun sevdaya,
Cövri-bifaidə əz bəs ki bərəd, bəs ki kəşəd.
Rahəti rəncə satub, başını həm qovğayə,
Kim görüb bir belə biəqlü səfihü həpənd?
Gör nə iş tutdu ki, bir neçə ovuc arpa.
Kütülə mülkünə istər ki, qoya bir sərhəd.
Damağında əsəri-zəəf hüveyda olmuş,
Cismi-napakinə məstuli olub zəəfi-kəbəd...
Hər kimi görsə həqarət ilə bir püf eylər,
Deyəsən satun alub Gəncəni ba hökmi-sənəd...
Naciya! Etmə təəccüb bunun əhvalından,
Yaxşıdan yaxşı gəlür, qaidədür, bəddən bəd.

## Molla Cəfər köpək oğlu haqqında

Ey gödək qamətü məlunü ləinü şeytan!
Bir bu dibaçeyi-məzmunim eşit, ərzim qan!
De ki, lazım edəsən anana sən bir xeyrat,
Atanın ruhuna hər gün verürəm mən ehsan.
Səntək övladı salub dəhrə, buraxub getmiş,
Yegdir andan dəxi bu dəhrdə bir qıllı qaban.
Bu vilayətdə sana kim ki, edə lütf, əta
Yoxdur andan dəxi bu şəhrdə bir biiman.
Bu qədər ki, vururam mən sana təpik, Həddad,
Yatma, ey vələdüzna, bu xabi-qəflətdən oyan.
Belə getməz bu rəvişlər ki, gedirsən bu yoli,
Tez olur başın içün zülməti-rəbbani əyan.
Salacaq vəlvələ əndamına ol rəbbi-cəlil,
Qəzəbü qəhri-xudavənd edəcək bir tufan.
Bu hesabı çəkəcək səndən o cəbbari-qədim,
Ol zaman ki, dəgəcək bir-birinə kövnü məkan.
Ənbiyadan sana bir kimsə şəfaət eləməz,
Çəkülür qüvveyi-nitqin dəxi qalmaz imkan.
Ey olan düzdi-cəfakar, səzavari dəğəl,
Ta bekey ey köpək oğlu, bu qədər düzdi nihan.
Kimdi bu mərhələdə dinşiyübən ya oxuyan.
O ki divani-urusdur eliyür zalimə lütf,
Xaneyi-əhli-şəriət dəxi olmuş viran.
Yoxdu bir əhli-şəriət edə məzlumə kömək,
Heç kəsin dərdinə olmur dəxi hasil dərman.
Özuni yaxşı verübsən o yerə, möhkəm dur,

O yer ol yerdi ki, tufana gedüb xəlqi-cahan.
O yer ol yerdi ki, çox kimsənələr həqq bilüb,
Çoxların din ilə imanı olubdur viran.
O yer ol yerdi ki, əhli var anın misli-ipək
Əhli-batin gözünə cümləsi manəndi-ilan.
Baxma ol yerdə olan cübbəvü əmmaməyə sən,
Salur ol yer əməli xaneyi-imana talan.
Əhli-dünyada qamu dirhəmü dinar arıyur
Axtaran həqqi tapulmaz bular içrə bu zaman.
Mali-dünyani məzəmmət eliyurlər hər vəqt,
Özləri dövləti cəm eyliyübən lüm-lüm udan
Getdilər cümlə bu məkrü bu hiyəldən qafil,
İndi zülmətdədi biçarə tamam yerdə qalan.
Ey Xudavəndi-cəhan! Sən elə rövşən bu işi,
Bu cahan əhlinə bu məkr, hiyəl olsun əyan.
Bir imami bizə sən eylə əta geybətdən,
Ta ki nurani ola dəhrdə hər piru cəvan.
Əhli-batin bizə bir molla əta eyləgilən,
Bişəban gelle kimi qoyma qalaq sərgərdan.
Qaçaram mən bu meçiddən, səbəbi bunlardır,
Görməgə tab gəturməm, bağrım olubdur həme qan.
Əgləşüb cayi-peyəmbərdə necə nakəslər,
Neyləsün Mehdi buna, çarə nədir ey rəhman!
Hər görəndə gözümə niş dəgər tarı bilür,
Tab yox məndə edəm bu məkri-nihana tavan.
İxtiyari-yola getmək əgər olsa məndə,
Mən də bu xəlq kimi gedər idim yaxşı-yaman.
Görürəm batini-əhvallərin cümlə hiyəl,

Ol zaman qəlbim olur zirü zəbər həm viran.
Yoxdu məndə özü allah bilür məkr, hiyəl,
Kimdə görsəm onu məhsub elərəm misli-ilan.
Belə xəlq eyliyüb əvvəldən o allah məni,
Qəlblərdən odur agah, o xəllaqi-cəhan.
Görmüşəm mən keçən əyyamdəki mollaları,
Gəldi sonra birisi Gənciyə bir əhli Gilan.
Eylədi şəhri müşəvvəş qarışub bir-birinə
İki firqə oluban bir-birinə durdu yan.
Ol zamandan tanuram o nəsli, allah bilür,
Saldı bu şəhrə ədavət toxmin, əkdi yaman.
O ədavətdi ki asarı anın baqidir.
Xəlq arasında deyirlər anu ruzanü şəban.
Xəlq iki firqə olub getdi hərə bir tərəfə,
Mən də getdim o yana, etdim onu həqq güman.
Bir uca yerdən ataymış özin, cümlə atar,
Düşməmişdi o zaman qəlbimə nuri-iman.
Nə bəsarət gözü qəlbimdə olub, nə zahir,
Xidmətində var idim neçə ili bipayan.
Bu xudanın işidir, özgə xəyal etməginiz,
Həqq bana eylədi bir gündə anın fisqin əyan.
Özü alimdi, e vallah, mənim bu sözümə,
Demərəm mən bunu həqqində onun kizbü yalan.
O ki mən gördüm onu onda o gündən bu yana
Çəkübən qırağını oldum ona nafərman.
Sorma ol gördügimi tul hekayətdir ol,
Söyləsəm məlum olur hər kəsə ol fisqi-nihan.

## Bir daha dinsiz molla haqqında

Getmə, sail, dərinə mollanın
Yetmək olmaz sirinə mollanın.
Daima taəti şeytanə elər
Lənət olsun pirinə mollanın.
Taəti someə bir riyadır, billah,
Baxma adətlərinə mollanın.
Qurtula bilməz o kimsə hərgiz
Düşə hər kim şərinə mollanın.
Bu sözü dəhrdə ol kimsə bilür,
Yana atəşlərinə mollanın.
Evi yıxılsun o əmmamələrin
Ki, minüb başlərinə mollanın.
Hər nə eylərso, o əmmamə elər,
Xalqi salub toruna mollanın.
Ey cəmaət, qaçın andan, zinhar,
Baxma ol dəftərinə mollanın.
Hər piçində yüz min hiylə dolub,
Qat-qat əmmaməsinə mollanın...
Əhməqanə eləmə taət ona,
Bax bir ol peysərinə mollanın.
Nə qədər var həyatın qaç-qaç
Getmə yavuq birinə mollanın.
İki dünyadə yüzü ağ olacaq
Düşməyən əllərinə mollanın.
Ey xudavəndi-həme aləmiyan!

Qıfl vur dillərinə mollanın.
Hər nə məkr eylər isə ol dildən,
Düşmə şurü şərinə mollanın.
Yekələrindən uzaq ol daim,
Baxma həm kəmtərinə mollanın.
Ey gözü açıq olan əhli-kamal,
Salma özin zirinə mollanın.
Olmasan talibi-nemət hərgiz
Mazıyü müstəqbəlinə mollanın.
Yeyə gər aləmi heç sir olmaz,
Qarnı görüm dəlinə mollanın.
Atlu gedən piyadə qayıdacaq
Kim gedə mənzilinə mollanın.
Od dutubdur təzəqi hiddətdən,
Sobasın puşkulinə mollanın.
Eyləmə taət ona həqq bilüb,
Bir bax ol peysərinə mollanın.
Ta qiyamət ola bilməz azad
Kim ki, düşsə felinə mollanın.
Olmasa rəngi-hənası, de bana,
Rəng verüm saqqalına mollanın.
Ey gözü açıq olan, bircə baxun,
Bir bu halətlərinə mollanın.
Kuhi-Qafı edələr cümlə qızıl,
Düşsə udar əlinə mollanın.

## Asi haqqında yazılmış həcvdən

Ey dil, hezar möhnət ilə keçdi ruzigar,
Payi-səbat olmadı bir yerdə üstüvar.
Pərvaz eylədin bu qədr tiri-fikr ilən,
Kəndi vucudinizdə dəxi bilmədin nə var.
Hərçənd cüstücu eylədin bu dəvairi,
Cüz bu degildi gah zimistan, gəh bəhar.
Aya nədir muradı bilürsən bu sanein,
Munca gəlubdi, həm gələcək leyl ilə nəhar.
Ustadi-karxanənin əmrilədi bular,
Çox-çox xilafdır desən çərxə kəcmədar.
Əbharə bax, bir də təəmmül bu qədr vəqt
Olmaz füzun, həm dəxi bulmaz inkisar.
Əflakə bax, bu vəzni-səqil ilə müttəsil
Öz adətində daim əlövqat biqərar.
Bu tişeyi-təfəkkür ilə həfr edən yeri,
Axir görür ki, tişəni bica əbəs urar.
Peyki-xəyalı göndərəsən Şərq, Qərbə sən,
Dutma ümid ol gerü gəlsün, ölüb qalar.
Dünyayə kimdi malik olub yetsün axirə,
Çox malikəm deyənləri saldı yola bu dar.
Anlar ki, iddiayi-rübubiyyət etdilər
Axirdə tiri-mərgə olub sinəsi düçar.
Dünya evində talib olan şəhdü şəkkərə,
Şəhd istədükcə çərx içitdirdi zəhrimar.
Eylə həvalə hər nə işin var xaliqə,

Neylərsə yaxşıdır sənə ol rəbbi-kirdigar.
Səndən sənin səlahını çox yaxşı ol bilür,
Çün səndə yoxdurur bu elmdə bir ixtiyar.
Düşdün bu pirlikdə neçə itlər ağzına,
Həfr oymakligi özünə etdin şüar...
Bax ruzgarə, eylə tamaşa, bu əsrə bax:
Hər ... – şair olub şeirlər yazar...
Həm öz vəlinemətinə qədəhlər deyər,
Həm eyliyür bu əqbəh olan felə iftixar.
Sən eylə xar dəhrdə, ey qadiri-ğəfur!
Bu dudmani-rifəti hər kim ki, etdi xar.
Sal bəhri-zillətə oni, müstəğrəqi-qəm et,
Ol vərtədən dəxi sən ani etmə bər kənar.
Belə hüquqi olmiyənin ruhi-cəddinə
Rəhmət o kəslər ki, edə lən bişümar.
Bir gövhərə yüz eyb deyə düşmənü həsud,
Öz rütbəsində baqidir ol dürri-şahvar.
Zər qədrin annamaz nə bilür xırs pişələr,
Olmaz tilai-xalis olan hiç kəməyar.
Bir neçə xəri edəsən pərvəriş yüz il,
Axirdə adəm olmağına yoxdu etibar.
Getdim xəyalə ol keçən əyyamı sərbəsər,
Yetdi zücaci-xatirimə dəhrdən ğübar.
Ey padşahi-ərzü səmavat, lütf qıl,
Bir qərni-taze dəhrdə sən eylə aşikar.
Həllaczadətək köpək oğlu Şişədə
Məğrur olub ağzına əcəb laflar urar.

...Xurşid batsa şəbpərə meydanı dövr edər,
Bixovf, bihəras edər hər tərəf şikar.
Roubah özin çu şiri-delavər hesab edər,
Məfqud olanda badiyədən şiri-pür şərar.
Bunlar dəlildir ki, anın zatıdır gəda,
Bəylik bir ismdir, qoyulub anda müstəar.
Zatı xoş olsa rütbəsi hər qədr fövq ola,
Tərki-məniyyət eyliyüb eylər bir inkisar.
Sairlərə təşəxxüsünü barı göstərə,
Öz sahibin görəndə, gərək ola xaksar.
Hər qədr it şərir ola, həm tünd, ğeyznak,
Şırmanı sahibin görcək, quyruğun bular.
Lakin o itlər ki, zatı anın hərc-mərcdir,
Yüz il çörək verə, genə öz sahibin dutar.
Yarəb! Bu bihüququ et xar-mübtəzəl!
Eylə bu dəhrdə sən onu zarü qəmgüsar!
Nəxli-muradı bari-təmənna gətürməsün!
Bəxt eyləsün həmişə bu napakdən fərar!
Yarəb! Behəqqi-xatəmi-məcmui-ənbiya!
Yarəb! Behəqqi-sahibi-Duldulü Zülfiqar!
...Qoy təngnayi-qəleyi-tən içrə könlünü,
Ətraf canibin eyləsun dərd, ğəm həsar!
Duzəx odinə yaxma bu Nacini, ey xuda!
Bəsdir bu qədr atəşi-dünyadə kim yanar.

## Asi və Yusifi haqqında müəşşər həcv
*(bir parça)*

Saqi! Bana bir badeyi-gülfam kərəm qıl!
Bu bəzmi kərəm eylə gülüstani-irəm qıl!
Ol badəni ver kim, eləsün məsti-həqiqət,
Bəhlul kimi ismini də divanə rəqəm qıl.
Ənduhi-cəhan ilə olubdur dili viran,
Bir sağəri-ləbriz ilə sən dafei-ğəm qıl!
Ya könlümə ver dəhr ğəmin çəkməyə taqət,
Yainki bu bidadi götür, tərki-sitəm qıl!
Ya nitqimi qıl məntiqi-quyayi-həqiqət,
Ta ol yədi mövla ilə ixraci-sənəm qıl!
Qıl könlümü mənzilgəhi-məşuqi-həqiqət,
Yainki bu dəhr içrə bəni gəngi-əsəm qıl.
Sal könlümə bir zümzümeyi-nəğmeyi-Davud,
Ol zümzümədən könlüm evin zir ilə bəm qıl!
Al mənligimi məndən, edüm tərki-məniyyət,
Ta lutf eləyüb mülki-məniyyətdən ədəm qıl!
Məhrum elə göstərmə bana dərgəhi-digər,
Öz kuyinə məhrəm eləyüb dəxli-hərəm qıl!
Pərvaz elə ey tayiri-dil övci-həvayə,
Bu dami-təəllüqdən özün dur elə, rəm qıl.
Saqi! Bana bir badə əta eylə pəyapey,
Ol badə ki, xasiyyəti əmvatı edər hey!
Bu dideyi-batin açılub bir yerə baxsın
Ta məhv ola bu dəhrd gözdən dəxi hər şey,

Aç bir gözünü, diqqət ilə aləmi seyr et,
Ta gör nədi bu dəhrdə əbharü feyafey!
Bu nəqşləri çəkdi o nəqqaşi-həqiqət,
Hər birinə bir ism qoyub çün əlif ü yey.
Hər canibə pərvaz edəsən tayiri-fikri,
Bu mərhələ məqdur degil eyləyəsən tey.
Bihudə məzən pay dərin badiye hərgiz,
İn mənzili-ənqast bəru kəs nəbərəd pey.
Avaz ki, neydən gəlür aya necə səsdir,
Mum eyləməsə neyçi ona səs eləməz ney.
Xasiyyəti maul-ənəbə kim eləyüb lütf,
Təsir nədəndir ki, verür nəşəni ol mey.
Bir dideyi-ibrət ilə bax, eylə təfəkkür,
Gör noldu cahan sahibi ol cami-Cəmü Key.
Ey xaliqi-biçun bu dili-səxt həsudi,
Sail bekəf eylə, anı möhtaci-dirəm qıl...



# Farscadan tərcümə edilmiş şeirlər

* * *

Ey zülm eləyib verdiyi peymanı qıran yar!
Məndən dəli ceyran kimi qaçdın, nə sözün var!?
Sənsizlik edibdir məni xəstə, qəm əsiri,
Qorxum bu ki, olmaz mənə qismət o dodaqlar.
Nəymiş qara xal ağ üzümün səhfəsi üstdə?
Kim geydirib əndamına o hüsndə paltar?!
Bir meyvə qoparmamış sənin hüsn bağından,
Qəddim o yayıntək əyilib, ey güli-gülzar.
Mən hüsnünə yetmək diləyilə ha yüyürdüm
Bir uçan sərçə dalınca necə bir tifl qaçar.
O qəza nəqqaşı çəkmişsə gözəl surət çox,
O Günəş hüsn kimi çəkmədi sürət, zinhar.
Boy-buxun səndə o düz sərvə bənzəyir, amma
Hanı limu cilası, ətri onda, ey dildar!?
Kim səni sevsə, qılıncın onu öldürsə əgər,
Yerə ondan o zaman bircə damla qanmı hopar!?
Oldum eşqin ilə bədnam, qapında yox mənə yer,
Xəbərim yox dedi Yusifdən odur həm canavar.
Mənə zahid der: o məhbubu, meyi tərk eylə,
Nə içibdir, nə sevib, eşqi, meyi o nə qanar?!
Naci! Məhbub ilə mey rəsmini bilməz hər kəs,
Bunu səndən eşidib aşiq olan hər kim var.

## Sevgili Süleymana göndərmək üçün yazılıb

Ey sən gülər üzlü həmdəm insan,
Hər dərdə, yaraya mərhəm insan.
Aləmdə olan bütün gözəllər,
Oldu üzünü görüncə heyran.
Tər reyhanı andırır xoş ətrin,
Səndənmi alıb xoş ətri reyhan?
Sənsizliyə səbr edərmi könlüm?
Sənlə tapar aramı ürək, can.
Gördün Xəlilə qoyun gətirdi,
Göndərdi onu mələklə rəhman.
Qurban sənə olmuşam həmişə,
Mümkünmü qəbul ola bu qurban.
Can getdi ümidlə artıq əldən,
Qorxum bu ki, çatmaya o dərman.
Könlüm səni gözlər intizarla,
Hicrində bu gözlərim tökər qan.
Gəzmə sən uzaq səni sevəndən,
Ey xublar içində şahü sultan.
Məstlər nə çox eşqinin camıyla,
Bir qurtum içincə oldu məstan.
Qeysər tacı başına o qoymuş,
Mülkündə məlahətin o, xaqan!
Quşlar ilə vəhşi xidmətində,
Hökmündə həm ins ilə can.
Hökmündədir ölkələr cəhanda

Vermiş sənə həm bu haqqı sübhan.
Gücsüz və zəif qarışqayam mən,
Mən səmtə də bir bax, ey Süleyman.
Niyyət bu gədaya birdir ancaq,
Asudə burax məni, qıl ehsan!

* * *

Tövbə etdin, ey ürək, meydən, əcəb yoxmu bahar!?
Yoxsa bir ayrı əlacın, dəxi nə üzrün var.
Keçməyibsə günahından burada Tanrı əgər,
Necə keçsin o günahı dediyin həştü çəhar?
Öz muradınca məni eşq çəkir hər tərəfə,
Nə edim, bir dəvə misli başıma keçdi məhar.
Sinəmi etdi hədəf Tanrı bəla oxlarına,
Oldu könlüm quşu hər şahin üçün adi şikar.
Məndən öt, ey ətəyi pak olan o zahid, get,
Bura gəldim nə üçün, gəlməsə idim nə olar?!
Qazi söylər meyi at, tövbə elə, ey saqi,
Sıxdı bu, qəlbimi, ver sən iki-üç cam yarar.
Qırpmaram mən gözümü oxlasalar oxla məni,
Getməyib ta ki gözümdən o gözü məstü xumar.
Xəstəyəm, könlüm o şirin ləbi istər daim,
Sən əlac et ki, onu sənsən eyləyən bimar.
Sən tərəfdən nə cəfa gəlsə mənə, şad oluram,
Məndən o şərt ilə olma dəxi sən həm bimar.
İşim, ey gül, həmişə nalədir, ah, əfğandır.
Qan dolu gözlərimi hər gecə gördüm bidar.
Naci! At pərdəni, qəm çəkmə, hamı təbil çalır,
Səni rüsvay eləməkçün bütün şəhər və bazar.

* * *

Bir yol ki səsə görmədi kimsə əsər orda,
Yoxdur qapı o qəsrə, dolanma hədər orda.
Bir sərçə gücünlə bu çölə basma ayaq, dur!
Qartallara tökdürdü bu çöl balü pər orda.
Tülküsifət, ey nəfs, o ovun düşmə dalınca,
Verdi başını şirü pələnglər betər orda.
Mətləb bu qapı olmayan evdə elə gizlin,
Yox kimsədə açmağa onu bir hünər orda.
Getdi ərəb at, oldu bu yolda ayağından,
Hardan tapa qüdrət bu yola, söylə, xər orda?
Anla bu savaşda qılıc oynatmağa yer yox,
Atdı yerə əldən o pələnglər sipər orda.
Karvan çox olub gedib, geri yox dönən amma,
Ta həşrəcən onlardan alan yox xəbər orda.
Naci! Belə işlərdə görən göz hanı səndə?
Çıxma yola, zinhar, belə bibəsər orda!

## Saib kəlamına cavab

Hüsnü yarın evimi etdi çırağban bu gecə,
Mənə bəxtimmi olub yoxsa mehriban bu gecə?!
Saqi! Sən məclisə gəl, çağlasın müğənni səsi,
Başlasın rəqsinə mütrüb gəlib zaman bu gecə.
Ayrılıq getdi, sevinc, şadlıq eyləmək çağıdır,
Hüsn gülzarına gir, dər gülü reyhan bu gecə.
Ayrılıqdan nə qədər qəm yedi qəlbim, nə deyim?
İç meyindən dodağın, var ikən imkan bu gecə.
Bir qabıqda iki badam içi canan ilə mən,
Yığışıb bir bədənə sanki iki can bu gecə.
Ürəyi, canı dəlib keçdi necə qəmzə oxu,
Sanki bəsləm quşuyam qanda qıvrılan bu gecə.
Məni bağban bu gün azad elədi gülşəndən,
Şükr, mətləb gülü dərdim bir ətək, san bu gecə.
Yoxsa bəxt ulduzu qəflətdən oyanmışdı özü,
Gəldi ağuşuma köynəksiz o canan bu gecə.
Dodağı ləl ləbin üstünə qoydum nə qədər,
Hələ daşqəlb rəqib eyləyir güman bu gecə.
O rəqib məclisinin rövnəqini sən qırdın,
Naci! Yan qoy papağı, özgədir cahan bu gecə.

* * *

Məxluqa ədalət qapın ey açıq olan sən!
Qəmliləri nazla nə qədər öldürəcəksən?!
Atdın yaxınından məni sən ta ki, uzağa,
Qəmlər yükünə bir hədəf oldum bu yazıq mən.
Hər dalğa ki, gördük qaça getdik dalısınca,
Gəzdik səni hər yerdə uçub quş kimi yerdən.
Rəhm et mənə, ey müşkül açan aləmə hər dəm,
Bir yol mənə rəhmət qapısı aç ki, görüm mən.
Bir cam dolu mey mənə lütf eylə sən, ey dost!
Nolar iki aləmdə məni ən yaxın etsən?!
Ya et iki aləmdə məni qəlbi gülər, şad,
Ya eylə məni heç kəs ələmlərdə təmamən.
Məndən nə zühür oldusa pis-yaxşı cahanda,
Hər yaxşı-yaman oldu özün yaxşı bilənsən.
Ya rəhmin ilə eylə özün könlümü abad,
Ey hər kəsə məhrəm hamıya mərhəm edənsən.
Dərgahına tutdum üzümü səndən ötəri,
Oldum qonağın, aç üzümə qapını lütfən.
Naci! Səni kama yetirən haqq olar ancaq,
Çəkmə əl ümiddən, eləyər haqq nə dilərsən.

* * *

Ey o qüdrət tacını şahlar başına sən qoyan[1]!
Yoxsulu möhnət, əzab bəndində məhv edən hər an!
Yer, dəniz, səyyarələr, ulduzlar, o mavi səma
Ay, Günəş xidmətçin olmuş, iş dalınca hey qaçan.
Yer üzü otlaqlarında biz qoyuntək otlarıq,
Sən bizi lütf ilə, qayğıyla otaran bir çoban.
Hər bir ulduz xidmətə hazır durubdur qarşıda,
Həm bələdçi olmağa hazır dayanmış kəhkəşan.
Vəslinə yetməkdən ötrü ayrı yol seçmiş hərə,
İsəvi zünnar bağlar, gəbr olub od yandıran.
Axtarır hər kəs səni insü pəri, cin və mələk,
Hər kəs eşqinlə yanır: istər qoca, istər cavan.
Əmrin olmazsa əgər, kim tərpədər bir qol-qanad,
Göz qalar nursuz o vaxt, bir söz deməz dil heç zaman.
Qalmışam heyrətdə qərq, ey çox kərəmli padşah!
Cismimə hardan gələr mən bilmirəm nitq, bəyan?
Bizlərə növ-növ hazır ehsanların var, bəllidir,
Bu bizim dildə şükürlər etməyə yoxdur tavan.
Mən səni gəzsəm özümdə, mümkün olmaz, mən çiyəm,
Ayrı yer onda necə hardan tapım, ey laməkan?
Harda tapsam mən səni, mən bildiyim ancaq budur,
Binişansan, binişansan, binişan, ey binişan.
Gahi məscid, gahi bütxanə yerim, gahi keneşt,

[1] Keçmiş zamanlarda deyilmişdir.

Gahi sağçı, gahi solçu, gahi gizlin, gah əyan.
Gahi Şərqdə, gahi Qərbdə, gah Şimalda olmuşam,
Gah yerin altında olmuşdur yerim, gah asiman.
Həm cahandan gen geyilsən, həm də gensən, bu yəqin!
Gah sən ovcunda cahanın, gah əlindədir cahan.
Kim özündə var isə, qafildir o, səndən tamam,
Məstdir aqillər sənin xümxanən ilə hər zaman.
Bir sənə bənzər nəfər heç bir atadan gəlməyib,
Həm bu analar gətirməz bir sənə bənzər olan.
Canı olan kəslərə hər ruzini sənsən verən,
Ömr edər o ruzi ilə günbatan, həm gündoğan.
Anbarından yem tapıb müftə yeyirlər daima,
Vəhşilər, quşlar, ilan, qarışqalar, ins ilə can.
Bu cahan o ülvi atadan olunca hamilə,
Feyzi meybəxş eylədi ki, nuş edə əhli-zaman.
Oldu bunlar lütfü ehsanınla hərdən aşikar,
Xaliqi sənsən bütün bu işlərin, ey yaradan!
Qaldı qafil məhşərəcən bunları kim bilmədi,
Kimdə bu süni görən göz var, olacaq şadman.
Bu sənin xəlq etməyindən aləmi heyrət tutub,
Pak olan zatını dərkə əqldə yoxdur tavan.
Zatı dərk etməkdən ötrü məxluqun yox qüdrəti,
Göylərə getməkçün o tapsın necə bir nərdivan?
Mən sudan sordum: «Neçün gündüz-gecə axmaqdasan?»
Dedi: «O dəryaya yetməkdir məramım hər zaman.»
Söylədim: «Dəryaya yetməkdə nədir məqsəd sənə?»
Dedi: «Vəslindən tapır aramı  bu könlüm hər an.»

Səy elə, ey nəfs, sən də döndər üz dərya tərəf,
Qoy bulaşmasın sənə dünyada bu xeyrü ziyan.
Bir rahatlıq görmürəm hiylə dolu dünyada mən,
Bir ana bəslər bizi, amma deyildir mehriban.
Gah edər qafil bizi, eylər özündən xaric o,
Gahi Məcnun eyləyir, olur bizə səhra məkan.
Var nə bir dost, nə mağaram, gizlənim, zahid olum,
Oğrudur, ya yolkəsəndir bu şəhər əhli olan.
Bir arıq eşşək ver, aparsın məni ta mənzilə,
Karvan getmiş, mənəm yaşdaş olanlardan qalan.
Nə xəbərdar var içimdən, nə zahirə bir rəhm edən,
Qalmışam aciz, özün yar ol mənə, ey yaradan!
Mən bilən, getməkdən özgə bir dəva yoxdur mənə,
Nola qurtar, nola qurtar, sən məni, ey qurtaran!
Rəhm et, ey müşkül açan, bu çarəsiz Naciyə sən,
Ta ki peyğəmbərlərə orda edə xidmət hər an.

## Bir şəxsin sifətləri haqqında

Vardı bir kəs Gəncədə tutmuş Vətən,
Əldə etmişdi özü hər dürlü fənn.
Elmlərdən görmüş idi bəhrələr,
Yaxşı tanırdı onu hər kənd, şəhər.
Şeirinin yanında Nizami xəcil,
Sədi ilə Ənvəri həm münfəil.
Öz xəyalından gələn təsnif demiş,
Çoxdan ölmüş cismə can bəxş eyləmiş.
Qursa məclis, hər nə istərdi elər,
Qəm qubarını könüllərdən silər.
Kəlmələr söylər, ürək xoş ruh tapar,
Hər sözündə bir rəvanlıq dəxi var.
Ondan əvvəl beylə şair gəlməmiş,
Elmi dərya, sahili yox nadir iş.
Yüz dil ilə nitqə başlarsa əgər,
Tər tökər Söhban ilə söhbanilər.
Batini buydu sənə etdin əyan,
Dinlə məndən bir hekayət, ey filan.
Gör necə surət verib Tanrı ona,
Yox tayı baxsan əgər insü cana.
Sübh vaxtı kim ona olsa düçar,
Aldanar, işdən qalar, haldan çıxar.
Saçlarından söyləyim öncə xəbər,
Zəfəran zəngindən artıq sarıtər.
Qaşları, kirpikləri ağdı tamam,

Böylə məxluq görməmişdir bir adam.
Saqqalı sünbül kimi pırpız durur,
Ağzını açdıqda dəhşət iy vurur.
Paltar əynində yuyulmaz heç zaman,
Müxtəsər, başdan ayağa çox yaman.
Başda tüklər tir-tikandan çox betər,
Burnu vardı doğru dörd barmaq qədər.
Gözləri göy, laciverddi bu adam,
Saqqalı tozlar içindəydi müdam.
Göz içi vardı onun bir civətək,
Rəqs edərdi daima onda bəbək.
Qırmızı peysər, saçı xəncər misal,
Tük-tükə onda yapışmış, ayrı hal.
Saqqalında gəzməmiş əsla daraq,
Bitlər etmişdi saray toplaşaraq.
Dırnağından söyləsəm, sən çək hesab,
Görməmiş eylə qılınc Əfrasiyab.
Dinləyin indi əcəb bir dastan,
Almaq üçün ondan ibrət hər zaman.
Hər zaman fikrimdə bu mətləb gəzər,
Varmı aləmdə belə insan məgər?!
Yatmış idim bir gecə bu fikr ilə,
Etdilər agah məni işdən belə.
Gördü bir məhşər bu gözüm aşikar,
Hökmünü ərz etdi o pərvərdigar.
Çaxnaşırdı xalq gördüm sərbəsər,
Bir-birindən qorxur idi bəndələr.

Xoş əməldəydi tamam hər doğru kəs,
Bəd əməl kəslər yaman dərdliydi bəs.
Gəldi haqq dərgahına yandan bu dəm
Mustafa Rəsul qızı Fatimə həm.
Söylədi: «Ey ədli çox pərvərdigar!
Şümri-məlun, o zalım, zülmkar
Oğlumu qətl etdi, şahiddir cahan,
İntiqam almaq dilər könlüm bu an.
Vəhy göndərdi cənabi-kibriya,
Etdi bu vəhyi qəbul Xeyrənnisa.
Dəstələr içrə yeri, axtar dedi,
Hər nəyə layiqsə, o alar dedi.
Qəlbi od Əhməd qızı döndü geri,
Məqsədi ardınca gəzdi hər yeri.
Saldı hər bir dəstəyə bir-bir nəzər,
Qatili istərdi tapsın o məgər.
Gördü bir yerdə iki murdar kəs,
Saqqalı sarı, gözü gömgöydü bəs.
Bir-birinin eyni o iki adam,
Bir qəlibdən çıxmış idilər tamam.
Başladı bunlardan o, ad sormağa
İbn Məhəmməd Hüseyn dedi: «Ağa!»
O birindən sordu ki, adın nədir?
Adını Şümr onda ondan gizlədi.
Dedi o Şümri-ləin: «Ağa mənəm,
Bir günah etməmişəm mən bircə dəm.
Dedi ağa: «Düz danış, bir bax bura!

Dində, dünyada sən ey üzü qara!
Şümr dedi: «Sənsən o məlun həmən,
Nə şəhid? Nə Kərbəla? Neyçün de mən?
Diş qıcatma, de nədir burda belə,
Söyləmək böhtan nədir, nə haqq ilə?
Düşdü yumruq davası ortaya bərk,
İxtilaf döndü əcəb qovğaya bərk.
Etdi təəccüb buna Xeyrənnisa
Olmadı aydın ona heç müddəa.
Dedi: «Ey pərvərdigarü zülcəlal!
Acizəm bu işdə mən, işdir mahal.
Görmədim mən bir təfavüt arada,
Tükcə fərq onlarda yoxdur orada.»
Etdi əmr yeri-göyü xəlq edən:
«Aç müəmmanı – dedi – Mustafa sən»
Onları ta gördü ol xeyrül-bəşər,
Onlara diqqətlə saldı bir nəzər.
Dedi: «Ey xəlq eyləyən ins ilə can!
Acizəm həm mən bu işdə bigüman.»
Gəldi sonra o Əliyyi Mürtəza,
Qıflı açsın, məlum olsun müddəa.
Oldu bu müşküldə həm aciz Əli,
Açmalıydı müşkülü bir qeyr əli.
Müctəba çıxdı axırda iləri,
Ta ki vursun düz damara neştəri.
Mətləbi həll etmədi həm Müçtəba,
Gəldi axırda şəhidi-Kərbəla.

«Qatilim-ərz etdi – it döşdür haman,
Bu səbəbdən döşlər açılsın bu an.»
Gördülər onlarda döşlər san köpək,
Döşlər oldu onlar üçün bir məhək.
Saldılar döşlərinə onlar nəzər,
Müddəanın ağacı verdi bəhər.
Gəldi saqqallar və gözlər sonradan,
Baxmaq ilə olmadı mətləb əyan.
Sordu məlun Şümrdən orda yenə:
«Bu müəmma məndən olmaz gizlənə,
Doğru söylə, Şümr kimdir de görək.»
Ağladı zalım, dedi gəlsin kələk,
Dedi: «Ey sən Mustafa gözündə nur!
Saf könüllərdə olan şadlıq, sürur!
Haqq bilir ki, burada mən doğruyam,»
Sonra Ağadan soruşdu: «Söylə bəs
Sənmi idin qatilim, ey kinli kəs?»
Dedi Ağa: «Ey imam, əldən tutan,
Mən Ağayam, el bilir ibn filan
Doğduğum yer Gəncədir, nəslim filan,
Söylərəm doğru mən, ey şahi-cahan.
Olduğum küçə bu an Zərrabidir,
Məskənim, yurdum haman Zərrabidir.
Əbucəddim bəsləmiş orda məni,
Mən dəlil verrəm, edər qane səni.
Tanıyır yaxşı məni orda olan,
Bir neçə dostumla yaxınlar, filan.»

Onları əmr eylədi, çağırdı həqq,
Aydın olsun istədi batillə həqq.
Gəldi əvvəlcə Hüseyn – o iş görən,
Bildiyi yox idi onun heç nədən.
O iki miskinə ol saldı nəzər,
Heç birini bilmədi ki, kimdilər.
İstədi gəlsin Tağı, o sarı saç,
Dostları ona dedi ki, getmə, qaç.
Dedi kim ki sarıdır, o getməsin,
Cisminə ta ki, xətərlər yetməsin.
Mətləbi dərk eylədi ta o cavan,
Geri döndü, qaçdı cəld o, oradan.
Dedi üz tutub sarı saçlılara:
«Bizə dağlarca deyirlər iftira.»
Bu xəbərdən o güruh qorxdu yaman,
Gözlərindən onların çox axdı qan.
Dost-tanışlar gəldilər həm o yerə,
Bu əməldən bir fikir dedi hərə.
Əlqərəz, gəlmədi nəticə ələ,
Tutdu o firqə Hüseynə üz belə:
«Burda bizlərdən o Şeyx Əhmədi var,
Siz deyən bu müşkülü tək o açar.
İti zehin, əqldə kamildir o,
Ağlı tünddür, hamıdan qabildir o.
O, İmamzadədə eylər xidməti,
Nəsli Şeyxdir, azaddır təbiəti.
Göstərib aləmdə o çox-çox hünər,

Çəksə yay, qurtarmaz ondan bir nəfər.
Tülkünü dost eyləyib itlər ilə,
Qoyunu tay-tuş edib qurdlar ilə.
Söhbət eylər quşlar ilə çox zaman,
Vəhşilərlə yol gedir o, mehriban.
Zil gecə tük düşsə, görər gözləri,
Altun eylər misi həm möcüzləri.
Dəvət etsən sən cavan şeyxi əgər,
Bəlkə də bu müşkülü o həll edər.
Əmr olundu şeyx tez gəlsin ora,
Dursun onlar da nəzərdə bu ara.
Şeyx ta onlara saldı bir nəzər,
Saf ürəklə dindi o əhli-hünər:
«Eldə təbi Ağanın mövzun idi,
Öz zamanında bir Əflatun idi.
Çox şeirlər demiş o, ortada var,
Ondan aləmdə qalıbdır yadigar.
Şümri-məlun neçə beyt bir zaman,
Yazmış öz fikrinə uyğun bigüman.
Bunların şeirində yoxdur fərq heç.»
Fatimə dilləndi ki, mətləbə keç.
Dedi: «Aşkar-gizlin ey nə var bilən!
Bu müəmmadan danış, əmr eylə sən.»
Vəhy gəldi ol cənabi-tanrıdan,
Dedi: «Ey xatun! Bu məhşərdir əyan.
Məndə şəkk var, xeyli müşküldür bu hal,
Qəlbinə sən qoyma dolsun qəm, məlal.»

Dedi həm maliklərə rəbbi-cahan:
«Əllərə qandal vurun oddan bu an.»
Hər ikisin atdılar odlara cəld,
Yerləri oldu cəhənnəm ta əbəd.
Şeyxzadə dedi bu şeiri, sözü,
İstədi bilsin olanı xalq özü.

* * *

Səni tapmaqdan ötrü mən yüyürdüm hər yana, ey can[1]!
Ömür bitdi, əlim bir mənzilə yetmir, deyil pünhan.
Yazıq könlüm bu dövrandan görübdür min cəfa, min dərd,
Fəqət ondan daha artıq mənə dərd oldu bu hicran.
Vüsal müjdəsi aldatdı məni o dağçapan misli,
Baxıb bir qətrə sən vəslin balından vermədin ehsan.
Əzəl gündə mənə sən o qanad, o qol ki vermişdin,
Var idi ta həyat uçdum, olub mən onlara heyran.
Mənim Yusifimi bir gün çıxardan olsa bazara,
Bədən nəymiş, haman saat onu allam verib mən can.
Mənə minlərlə cövr etdin, dayanmaq bilmədin əsla,
Yenə qəlb üzmədi səndən əli, ey sevgili canan.
Əgər olsa təbib qabil, gəlib qəlbə əlac eylər,
Görüb kim eşq xəstəsi tapa səhhət bəlalardan.
Sənin eşqin məni qoymuş təəccüblərlə heyrətdə,
Mənə barmağımı dişlətdirir, etmiş məni heyran.
Sənin mən eşqini eldən çəkindim, etmədim aşkar,
Olunca aşikar cırdım bu bəxt paltarını candan.
Sənin qəlbin mənə yanmır, məgər o qəlb daşdandır?
Ümidlər puç olar əvvəl düşünməzdim, idim nadan.
Yerindən oynadıb qəlbi lətif bir eşq ilə aldın,
Deyildi böylə əvvəllər ümidlər, vədlər, peyman.

---

[1] Bu şeir 1299-cu ilin cumadə əl-əvvəlin 17-də deyilmişdir (yəni 8 may 1882-ci ildə)

Mən etdim cəhdlər min-min, düşündüm yar olarsan sən,
Nə bir gül dərdim o, qəlbi edə şad, vəsl bağından.
Zaman düz qəddimi əymiş, onu etmiş kaman misli,
Cahandan mən nə gördüm ki, əyibdir qəddimi dövran.
Qaçır hürküb cəfalarından aşiqlər sənin hər dəm,
Mən amma qorxmadım heç vaxt gələn səndən
cəfalardan.
Cəhənnəmdə o malikə de ki, məndən götürsün əl,
Edibdir bir şəhid onsuz da dərd ilə məni hicran.
Tutub üz göylərə sordum mən ulduzlarla bürclərdən,
Nə etdim, görmədim xoş gün, mənə zülm eylədi
dövran.
Mənə verdi cavab ulduzlar: «Ey vecsiz qoca, bir dur,
Bu dərdlərlə dolu çöldə elə zənn etmə tənhasan.
Haman o Naciyəm mən çarəsiz ömrüm boyu ancaq
Eşitdim bu bələddə hər zaman min tənə, min hədyan.

## Məryəm haqqında

Bizlər xilası üçün İsanı doğdu Məryəm[1],
Qəlbin yaralarıyçün qeybdən gəldi mərhəm.
Nə həmdəmi var idi Limermanın, nə yarı,
Onun təbinə uyğun gəldi xoş sima həmdəm.
Sudyanın bağçasında gül təşnə idi, amma
Rəhmət səmalarından endi o xeyr şəbnəm.
Onlar üçün bir inci bəxş eylə sən, ilahi!
Dərya bir inci verdi – qoy söyləsin hər adəm.

## Sofi haqqında

Saf ürək Sofi o saf meydən olub məst, xumar,
Ona, Allah, onu sən ver ki, ürəyində o var!
Qəlbi heyran edən o hüsnünü kim görsə, yəqin!
O səbəbdən əbədi o üzünün məsti olar.
Ayağı bağlı kəməndinə kim düşərsə sənin,
O qəbir ağzınacan hüsnünün torunda qalar.
Kim eşitsə o şirin ləblərinin söhbətini,
O susar, sanki dodağı dodaq üstünə qoyar.

---

[1] *Gəncə divanxanasının sudyası Limerman mənə çox lütflər göstərdi və Məryəm və Sofi adlı qızları götürüb mənim həkimxanama gəldilər. Mən qəzəl yazmaqla məşğul idim. Mən bəndədən xahiş etdilər ki, onun arvadı və qızı haqqında bir neçə fərd yazım. Buna görə bu beytləri yazdım və özünə verdim. 1277 şəban – 1861-ci il fevral.*

## Rübailər

Ey sən məni heçdən yaradıb var eləyən,
Etdin məni Musa gəhi, gəh Qarun sən.
Verdin bu vücuda ən gözəl surət özün,
Biz olmasa idik, nə edərdin, görəsən.

Dünya elə körpüdür, qırılmış çox-çox,
Hər kim ona bağlandı, əldə heç nəyi yox.
Sanki yuxudur həyatı bu dünyanın,
Xoşbəxt olu bu bəla torundan qaçan ox.

Aləm belədir: birdir onda yaxşı-yaman,
Birdir bu savaşgahda udanla uduzan.
Qorxutsa səni gözləri kor bir vaiz,
Qorxan, yemə qəm, birdi qorxudanla haman.

Alçaq bu cahandan tamam olduq bizar,
Yüz dəfə sevinnəm ölümə hər necə var.
Can çünki uçub getsə bədəndən hərgah,
Qoymaz məni gendə, bu yəqindir cabbar.

Ey kəs o ilahi əsərin nüsxəsi sənsən,
Ey kəs o şahın camalına ainəsən sən.
Səndən kənar aləmdə heç nə yox mövcud,
İstə sən özündən istəsən hər nə həmən.

Hər dəm bu fələklər gətirir bir yeni qəm,
Almaz birini, bir yeni qəm verməsə həm.
Çəkdik nələr, ah, o gəlməyənlər bilsə,
Onlar bura gəlməyi düşünməz bir dəm.

Dedin: «Verəcəm sənə müdam dərd, azar»,
Heyrətdəyəm, imkan bu işə harda, de, var.
Harda sən özünsən, orada olmaz əzab,
Sən olmayacaq yerdə əzab hardan olar?!

Nəymiş bizə gəlməkdə bu dünyayə qərəz?
Biz axtarırıq səni, nədir ayə qərəz?
Sənsən və bizik, cahanda yox özgə olan,
Sənsən nədir anlayan bu sevdayə qərəz.

Dərya o vücudun, bizik ondan qətrə,
Xidmətdə durub eyləyənik biz səcdə.
Səndən bizə lazım o olar bir gün ver,
Xeyrin-ziyanın bizik gedən alverdə.

Bir xəznə idim – özün buyurdun – gizlin,
Yəni bu olub bu işdə qayən, fikrin.
Bizlər gətirildik ki, bilək sən varsan,
Burda bizə bir xeyir-ziyan yox ki yəqin.

Aləmdə nə mövcudsa, onda varsan sən,
Alçaq, ucaya həyat bağışlarsan sən.

Məxluq sənə eyləyir pərəstiş daim,
Məxluqu özün həmişə oxşarsan sən.

Gəldi qocalıq, bədəndə məskən saldı,
Əvvəl olanı tutdu əlimdən aldı,
Sonra qulağım, gözüm zəifləşdi tamam,
Axırda mənə ləhəddə dar yer qaldı.

# İÇİNDƏKİLƏR

Mirzə Mehdi Naci və poeziyası ........................................................ 6

**Qəzəllər**

Bu cəhanın işləri, ey dil, təmam aşüftədir ...................................... 29
Yandı canım hicrdən ruhi-rəvanım gəlmədi ................................... 30
Dərgəhi-piri-muğam əmnu əmanım mənim ................................... 31
Şanə hər dəmdə ki, ol zülfi-pərişanə dəgər ..................................... 32
İçitdirdin bana ruzi-əzəl bir sağər, ey saqi! ................................... 33
Sən bilmə ki, pərvanə özin narə buraqmış ...................................... 34
Hər nə nemət ki, xuda xalqa verüb bad aparur ............................... 36
İnani-ixtiyarım aldı əldən bir büti-tərsa ........................................... 38
Ola bir dəsti-dil aram dutum ........................................................... 40
Könül mürği səri-zülfündən özgə bir məkan dutmaz ...................... 41
Dela, hər bir cəfa kim yardəndir eyni-rahətdir ............................... 42
Müjəm dərgahinin gərdü ğübarin röftüru eylər .............................. 43
Sual eylədi bir kəs fələkdən, ey qəddar! ......................................... 44
Qamətintək sərvlər gülşənara bala degil .......................................... 46
Qaşın tağını nəqqaşi-əzəl bəs xubtər çəkmiş ................................. 47
Dəng edüb başımızı zagü zəğən həm həməsi ................................. 48

**Müxəmməs və müsəddəslər**

Ey səba, gər söyləsən canana bəndən bir xəbər ............................... 51
Söylərəm şur ilə yaran sizə bir turfə xəbər ...................................... 54
Dün düşdü yadimə ləbi-ləlin hekayəti ............................................. 57
Hənqami-şam, guşeyi-xəlvət, şəbi-bəhar ......................................... 60

**Müxtəlif şeirlər**

Taxıl qıtlığı və şəhər əhalisinin pis halı ........................................... 64
Aslan ağa! Yaxın durma cavana....................................................... 69
Ərzimə guş qıl, ey zairi-beytür-rəhman............................................ 70

Növhə ........................................................................................ 73
Ey Mahmud ağa! Ənisi-dirin........................................................... 75
Ey dilbər ü mehribanü ğəmxar ....................................................... 76
Siz istərsiz Kəlimullah Firon kimi məst olsun................................. 77
Ey salan vəlvələ bər mülki-İrəvanə şlaq.......................................... 78
Yenə İrəvan şlaqı haqqında ............................................................ 80
Yenə İrəvan mığ-mığının vəsfi ....................................................... 81
Könül, demədimmi eyləmə tuğyan.................................................. 83
Eyzən dər məzəmməti-dünya və əhli-u .......................................... 88
Bu vaqiətdən ta ki, könül ba xəbər oldu.......................................... 91
Qıl bir nəzər bu dideyi-xunbarə, ya Əli........................................... 92
Ey məni bəhri-qəmə qərq eləyən türfə cəvan .................................. 93
Ey qılan nəzm ilə bu könlüm evin nurani........................................ 94
Hüseyn ağa ibn Mərhum Mirzə Adıgözəl bəyin
bəxşişi və paxılı haqqında həcv ...................................................... 98
Bax .................................................................................................. 101
Ərzimə guş qıl, ey şiri-xudanın şiri ................................................ 106
Ey xaliqi-bimisalü biçun.................................................................. 108

## Həcvlərdən seçmələr

Beşnu əndərzi-məra, faizi-hər əncümənəst...................................... 109
Şəhər əhalisindən şikayət və Hacı Abbas haqqında ........................ 116
Molla Cəfər köpək oğlu haqqında ................................................... 118
Bir daha dinsiz molla haqqında....................................................... 121
Asi haqqında yazılmış həcvdən ...................................................... 123
Asi və Yusifi haqqında müəşşər həcv ............................................. 126

## Farscadan tərcümə edilmiş şeirlər

Ey zülm eləyib verdiyi peymanı qıran yar! .................................... 130
Sevgili Süleymana göndərmək üçün yazılıb ................................... 131
Tövbə etdin, ey ürək, meydən, əcəb yoxmu bahar!? ....................... 133
Bir yol ki səsə görmədi kimsə əsər orda ......................................... 134

Saib kəlamına cavab ........................................................................ 135
Məxluqa ədalət qapın ey açıq olan sən! ........................................... 136
Ey o qüdrət tacını şahlar başına sən qoyan ...................................... 137
Bir şəxsin sifətləri haqqında ............................................................ 140
Səni tapmaqdan ötrü mən yüyürdüm hər yana, ey can ......................... 148
Məryəm haqqında ........................................................................... 150
Sofi haqqında ................................................................................. 150
Rübailər ......................................................................................... 151

**İÇİNDƏKİLƏR** ............................................................................ 154

**Azərbaycan Milli Elmlər Akademiyası**
**Gəncə Bölməsi**
**Nizami Gəncəvi Mərkəzi**

***M.M.Naci. Seçilmiş əsərləri.***
***Transliterasiya, tərcümə, tərtib və önsözün müəllifi:***
***Əməkdar elm xadimi, prof. Xəlil Yusifli.***
***"Elm" nəşriyyatı. Gəncə, 2021. 157 səh.***

**Texniki redaktor:** *Fərhad Mirzəyev*
**Kompüter yığımı:** *Nailə Mirzəyeva, Mehriban Səmədova*
**Kompüter dizayneri:** *Nailə Hacıyeva*
**Korrektor:** *İlhamə Cəfərova*

**Yığılmağa verilmişdir: 05.01.2021**
**Çapa imzalanmışdır: 06.01.2021**
**Kağızın formatı: 60x90, 1/16**
**Uçot nəşr vərəqi: 9,6**
**Tirajı: 500**

**AMEA Gəncə Bölməsi,**
**Heydər Əliyev prospekti, 419**